www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 avqust 2016-cı il Cümə № 182 (6503) Qiymәti 60 qәpik

**Xəbər**

## 7 milyon dolları mənimsənilən iş adamından şok açıqlamalar

yazısı səh.5-də

**Gündəm**

### Qarabağ üçün status tələsinə düşməməyin tək yolu



"5+2" formulu ilə bağlı hüquqşünas xəbərdarlığından çıxan əsas nəticə

yazısı səh.11-də

### Nazirin dərisini soymağa çağıran Akif Nağı cinayət məsuliyyətinə cəlb oluna bilər

yazısı səh.15-də

### MSK-da mühüm toplantı: rəsmilərdən referendum xəbərdarlığı

yazısı səh.3-də

### Eldar Mahmudovun baş istintaqçısının həbsi tələb olundu

yazısı səh.7-də

### İsa Qəmbərin NİDA-çı oğlu saxlanıldı və... buraxıldı

yazısı səh.3-də

### Oliqarxlar pullarını ölkədən çıxarır - səbəb

yazısı səh.5-də

### Misir Mərdanova qarşı iddia: "Gülən məktəblərini himayə edib"

yazısı səh.6-da

### Rusiya Dumasının erməni əsilli deputatı: "ABŞ Ermənistanı Rusiyadan qoparmaq istəyir"

yazısı səh.9-da

### İlhamə Quliyevanın məzarı üstündəki gülləri oğurladılar

yazısı səh.6-da

### Azərbaycanlılar Facebook-da niyə aqressivdir? - Psixoloq deyir ki...

yazısı səh.14-də

### Duzlu gölə şəfa ardınca gələnlər, yoxsa potensial xəstələr? - Əməkdaşımızın qeydləri

yazısı səh.12-də

## Bölgənin ən qanlı münaqişə ocağına dair mühüm gəlişmə

# ƏRDOĞANIN KRİTİK İRAN SƏFƏRİ: QARABAĞ ÜÇÜN DAHA BİR KOALİSİYA YARANIR

Ankara-Tehran-Moskva formatında Suriya böhranının həlli böyük bir bölgədə digər potensial müharibə ocaqlarının da söndürülməsinə yol açardı; Azərbaycanın daxil olduğu region taleyüklü mərhələ astanasında...




yazısı səh.8-də

## "Rövşən Lənkəranski"ni kim və niyə öldürdü - şok təfərrüat

Azərbaycanlı "qanuni oğru" İstanbulda güllələndi; Lənkəranskinin düşmənləri çox olduğundan qətlin sifarişçisinin kimliyi müəmmalıdır, amma...; avtoritet bu gün doğulduğu torpaqda dəfn olunacaq

yazısı səh.10-da



İlham İsmayıl

### Təhlükəsizlik zabiti bəzi generalların həbsini anons etdi

yazısı səh.7-də



### Məlahət Mürşüdlü "gülənçi" adlandırıldı, cavab gecikmədi

yazısı səh.6-da



### Professor İlham Rəhimovun Qarabağ açıqlamasına dəstək gəldi

yazısı səh.9-da



# Azərbaycanın böyük alimi Kamil Vəli Nərimanoğlunun 70 yaşı tamam oldu

**Bu gün Azərbaycanın görkəmli alimi, tanınmış filoloq Kamil Vəli Nərimanoğlunun 70 yaşı tamam olur. Kamil Vəli Nərimanoğlu 18 avqust 1946-cı ildə Cəbrayıl rayonunda anadan olub. 1965-ci ildə orta təhsilini başa vurub.1970-ci ildə ADU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib və həmin il universitetdə müəllimliyə başlayıb. 1988-ci ildə professorluq dərəcəsi alıb, 1988-1999-cu illər arasında universitetdə Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik edib, Böyük Elmi Şuranın üzvü olub.**

1990-cı ildə Konya Səlcuq Universitetinin fəxri doktoru adına layiq görülüb. 1991-1992-ci illərdə İzmir Universitetində, 1999-2000-ci ildə Kipr Doğu Ağdəniz Universitetində dərs deyib.

Kamil müəllim Türkiyənin nüfuzlu elmi təşkilatlarından Türk Dil Qurumunun, Atatürk Kültür Mərkəzinin və Türk Folklor Qurumunun fəxri üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin məclis, Ali Attestasiya Komissiyasının ekspertlər şurasının üzvü olub. 30-dan çox kitabın, 500-dən çox məqalənin müəllifidir. Dünyanın 20-dən artıq ölkəsində elmi konfranslarda çıxış edib.

Kamil Vəli Nərimanoğlu 1993-cü ildə prezident Əbülfəz Elçibəyin fərmanı ilə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsinə təyin olunub.

Kamil müəllim 1998-ci ildə elmi araşdırmalarına və Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin inkişafına görə Türkiyə Respublikası prezidentinin fərmanı ilə Türkiyə Cümhuriyyəti "Şərəf və Ləyaqət nişanı" ilə təltif edilib.

2002-ci ildə isə o, Türkiyə Nazirlər Kabineti yanında Türk Əməkdaşlıq və İnkişaf Agentliyinin, Türk Dil Qurumunun mükafatlarına layiq görülüb.

Professor Kamil Vəli Nərimanoğlu 2004-cü ildə Bilkənd Universiteti və Türk Mədəniyyətinə Xidmət Vəqfi tərəfindən dünyaca məşhur dörd elm və mədəniyyət xadimi ilə birgə mükafatlandırılıb. Həmin il o, Qırğıztanda Çingiz Aytmatov Akademiyasının fəxri üzvü seçilib.

Kamil müəllim 2006-cı ilin dekabrında Türk Dil Qurumunun, Konya Səlcuq Universitetinin, Karaman Bələdiyyəsinin, Hüseyn Qazi Vakfının və Başbakanlıq yanında "Avraziya Mərkəzi"nin mükafatlarına layiq görülüb.

Hazırda hörmətli professor Türkiyənin Aydın universitetində dərs deyir.

"Yeni Müsavat" qəzeti ailəsi olaraq ən xoş diləklərimizlə görkəmli alimimizə söylənilən təbriklərə qoşulduğumuzu bildirir və ona can sağlığı arzulayırıq!

Ad gününüz mübarək, Kamil müəllim!


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Qərb siyasi məhbusları azad etmək gücündədirmi?

## Əsabəli Mustafayev: "Bundan sonra beynəlxalq aləmin yalnız bir yolu qalır"
## Mehman Əliyev: "Qərb proseslərin içindədir"

**Azərbaycanda siyasi həbslər zamanı Qərbdən gələn reaksiyalar daim birmənalı olur. Beynəlxalq hüquq təşkilatları yalnız şablon bəyanatlar verməklə işlərini bitmiş hesab edirlər. Məsələnin görünən tərəfi odur ki, indiyə qədər heç bir siyasi məhbusun azadlığı üçün bu təşkilatların nəzərə çarpacaq fəaliyyətləri diqqət çəkməyib.**



Son günlərdə REAL-ın icraçı katibi Natiq Cəfərli və digər həbs edilən fəallarla bağlı də xarici qurumların ənənəvi yanaşmasının şahidi olduq. Maraqlıdır, bu təşkilatların Azərbaycanda siyasi məhbusları azad etdirmək üçün başqa imkanları varmı, varsa, bu imkanlar nədən ibarətdir?

Əsasən siyasi məhbusların hüquqlarını qoruyan **vəkil Əsabəli Mustafayev** hesab edir ki, beynəlxalq təşkilatların bəyanatlarına münasibət Azərbaycanda təəssüfedici həddədir: "Sivil dünyada yaşayırıq. Bu dünyada da sivil ölkələr onların ünvanına deyilmiş hər tənqidi araşdıraraq, müvafiq addımlar atırlar. Bir çox demokratik ölkələrdə kifayət edir ki, dünya ictimaiyyətinin hər hansı bir məsələyə münasibəti əsasında siyasətini müəyyənləşdirsin. Bizim ölkəyə gəldikdə isə, çox təəssüf ki bunun əksidir. Gözləyirlər ki, hansısa sərt addımlar atılsın, ondan sonra müvafiq qərarlar versinlər. Beynəlxalq təşkilatların əllərində diplomatik üsullardan başqa digər vasitələr yoxdur. Qalır Avropa Məhkəməsi. Bu məhkəmə də siyasi motivli işlərlə bağlı Azərbaycana qarşı çoxsaylı qərarlar çıxarıb. Orada fundamental hüquqların pozulması öz əksini tapıb. Hökumətin bu sahədə siyasətini dəyişməsi üçün cəhdlər edilib, lakin hakimiyyət cəhdlərə məhəl qoymayıb. Bundan sonra beynəlxalq aləmin yalnız bir yolu qalır: Azərbaycan üzərinə götürdüyü öhdəliklərə əməl etmirsə, sanksiyalar və digər təzyiq üsulları işə salına bilər. Çoxdandır belə sanksiyalar tətbiq olunmur - əgər Rusiya və Belarusa qarşı sanksiyaları saymasaq. Sanki azərbaycanlı məmurlar cəhd edirlər ki, ölkəyə qarşı sanksiya tətbiq edilsin. Belə davam edərsə, güman edirəm ki, həmin məmurların arzusu yerinə yetəcək. Azərbaycana qarşı beynəlxalq təşkilatlar tərəfindən ciddi tədbirlər görülə bilər. Biz istəmərik ki, belə hallar olsun. İstəyirik ki, hər şey demokratik metodlarla ölkədaxilində həll olunsun. Amma buna inam qalmayıb".

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** hesab edir ki, Qərbin susması prosesin içərisində olması deməkdir: "Həbslər siyasi fəallığın qarşısını almaq üçündür. Hökumət islahatlara getməyə məcburdur. Başqa yol görmürəm. Təzyiqlər isə daim gündəmdədir. Hakimiyyət yaranmış böhranın qarşısını ala bilmədi. Bu gün iqtidar Qərblə danışıqlarda yardım istəyir. Yardım vermək üçün də islahatlar tələb olunur. Bu istiqamətdə işlər gedir. Referendum elan olunması da bununla bağlıdır. Qərb tərəfindən bununla əlaqədar heç bir irad yoxdur. Bu, onu göstərir ki, vahid bir razılaşma var və bu istiqamətdə proseslər gedir. Hakimiyyət istəmir ki, referenduma qədər vəziyyət gərginləşsin, cəmiyyətlə qarşıdurma olsun. Qərbin susması isə o deməkdir ki, proseslərin içərisindədir".

❑ Cavanşir ABBASLI

# Hilal Əsədovun sürücüsü ilə jurnalist arasında baş verən insidentin pərdəarxası... - eksklüziv

## Bəhruz Bayramov: "Pərvizi şərləyirlər ki, guya 3 yaşlı uşağı döyüb"

**Gununsesi.info portalının rəhbəri, vicdan məhbusu Pərviz Həşimli hazırda Nərimanov rayon polis idarəsinin 16-cı polis bölməsindədir. Bu barədə onun vəkili Bəhruz Bayramov müsavat.com-a açıqlamasında bildirdi. O, dedi ki, artıq müvəkkili ilə görüşüb.**



Baş vermiş insidentin təfərrüatlarını açıqlayan vəkilin sözlərinə görə, hər şey P.Həşimlinin Gənclik həndəvərindəki bir yeməkxanadan çıxan vaxt milli təhlükəsizlik nazirinin eks - müavini Hilal Əsədovun həyat yoldaşı, 14 saylı Uşaq Poliklinikasının müdiri Nüşabə Əsədova və onun sürücüsü ilə qəfil qarşılaşması zamanı baş verib: "Nüşabə Əsədova sürücüsünə deyib kİ, mənim poliklinikanın baş həkimliyindən çıxarılmağımla bağlı xəbəri yazan adam budur. Sürücü də Pərvizə yaxınlaşıb ki, niyə yalan məlumat yaymısan, xanım vəzifəsindən çıxmayıb. Pərviz cavab verib ki, həmin vaxt biz xanımın özü ilə bu xəbəri dəqiqləşdirmək istəsək də, telefonlarımıza cavab vermədi. Bu zaman mübahisə uzanıb. Pərviz isə bu baş verənlərin hamısını telefonla çəkib. Nüşabə Əsədova deyib ki, mənim həyat yoldaşım general olanda bütün Azərbaycan mənə "çest" verirdi. Pərviz hiss edib ki, onu təxribata çəkmək istəyirlər, ona görə də uzaqlaşıb. Çox güman ki, qarşı tərəf də bu zaman nə etdiyinin fərqinə varıb və sürücü arxadan Pərvizə çataraq ondan mobil telefonunu almağa cəhd edib. İnsidentə polis müdaxilə edib və hər iki tərəf polis bölməsinə gətirilib".

**B.Bayramov dedi ki, qarşı tərəf ərizə yazaraq guya ki, P.Həşimlinin 3 yaşlı bir uşağı vurduğunu iddia edib. Onun sözlərinə görə, poliklinikanın işçilərini də şahid olaraq gətiriblər**: "Halbuki onların gördüyü iş jurnalistin fəaliyyətinə mane olma, özbaşınalıq və xuliqanlıqdır. Bu əməl birbaşa zorakılığa daxildir".

❑ SEVİNC



# Ermənistana şok: maliyyə yardımı dayandırıla bilər

**Yaxın vaxtlarda Avropa İttifaqı Ermənistana maliyyə yardımını dayandıra bilər. İşğalçı ölkənin "xaric bizə kömək edəcək" kimi bəyanatları indi daha çox mənəvi dəstəyə əsaslanır. Hazırda Ermənistanın maliyyə-iqtisadi vəziyyəti o qədər acınacaqlıdır ki, xaricdən daxil olan istənilən qəpik elə anındaca yox olur.**

İkincisi, mövcud rejimin nüfuzu o qədər ləkəlidir ki, donor ölkələr Ermənistana yardım paketinə imza atmaqla Sarqsyanın cinayətkar qruplaşmasına dəstək verənlər siyahısına düşmək istəmirlər. Avropa İttifaqı büdcəsindən ayrılan vəsaitin məqsədyönlü şəkildə xərcələnməsinin marağında olsa da, Ermənistanda bu problemlərlə üzləşir.

Əsasən keçmiş Sovet İttifaqı ölkələrində həyata keçirilən "Tvinninq" proqramı da eyni aqibətlə üzləşib. Avropalılar ermənistanlı rəsmiləri ölkənin idarəetmə sisteminin nizamlanması, korrupsiyaya qarşı tədbirlərin gücləndirilməsi ilə bağlı layihələrə üstünlük verməyə çağırır. Lakin hakimiyyət istiqaməti üzrə yox, başqa məqsədlərə xərcləyir. Bundansa Avropa İttifaqı duyuq düşüb.

**Vəziyyət o həddə çatıb ki, İttifaqın İrəvandakı nümayəndəsi Petr Svitalskiy də dilə gəlib. Diplomat deyir:** "Bu yaxınlarda icra müddəti başa çatan proqramın uğurla nəticələndiyini söyləmək mümkün deyil. Belə ki, məqsədi iqtisadi rəqabətliliyin müdafiəsi üzrə dövlət komissiyasının işini tədqiq etmək və işin effektiv təşkili üçün məsləhət vermək olan daha bir "Tvinninq" layihəsinin nəticələri qəbul edilməyib. Korrupsiyaya qarşı mübarizə Ermənistan üçün milli məsələdir" - sitatın sonu.

O da məlum olub ki, Avropa İttifaqı Ermənistanda korrupsiya ilə mübarizəyə yenidən 15 milyon avro vəsaiti ayırıb. Bu vəsait müəyyən şərtlərlə xərclənməlidir. Vəsaiti ayıranlar nəticə görmək istəyirlər. "Əgər nəticə görməsək bu pul Ermənistan hökumətinin hesabına köçürülməyəcək" - Avropa İttifaqının Ermənistandakı nümayəndəsi belə deyib. Dolayısı yolla diplomat bir daha Yerevana korrupsiya adlı probleminin olduğunu xatırladıb. Sonuncu isə hələ də özünü "karlığa" vurub. Ya Sarqsyan avropalıları ciddiyə almır, ya da ölkəsini başqa cür idarə edə bilmir... Elə deyəsən orda vəziyyət erməniсədir (Region TV).

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016

**Avqustun 18-də Mərkəzi Seçki Komissiyasında(MSK) sentyabrın 26-na təyin edilən referendumla bağlı dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilib.**

# MSK-da mühüm toplantı: rəsmilərdən referendum xəbərdarlığı

## Zeynal Nağdəliyev: "Maraqlı tərəflərin təxribatları, niyyətləri ola bilər, biz bunların qarşısını almalıyıq"




Qurumdan verilən məlumata görə, müşavirədə Azərbaycan Prezident Administrasiyası rəhbərinin müavini, regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyev, MSK sədri Məzahir Pənahov, Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, ədliyyə nazirinin müavini Azər Cəfərov, baş prokurorun birinci müavini Rüstəm Usubov, daxili işlər nazirinin müavini Oruc Zalov və Bakı şəhəri üzrə dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.

**Çıxış edən Məzahir Pənahov deyib ki, referendum Azərbaycanda sabitliyin qorunmasına xidmət edir**: "Azərbaycan sürətlə inkişaf edir, əhalinin həyat şəraiti yaxşılaşır. Biz bütün seçkiləri yüksək standartlarla keçirmişik, bu referendumu da yüksək səviyyədə keçirməliyik. Azərbaycan prezidenti İlham Əliyevin reytinqi çox yüksəkdir. Ancaq bəzi güclər hansısa ölkələrin daxili işlərinə qarışmaq istəyirlərsə, buna seçki yolu ilə qarışırlar. Azərbaycanı istəməyən qüvvələrə, insanlara bəhanə verməməliyik. Aşağı seçki komissiyalarını, seçiciləri, seçki subyektlərini nə qədər maarifləndirsək, buna o qədər çox nail olacağı. Çalışacağıq ki, qarşıdan gələn referendum Azərbaycan tarixinə qızıl hərflərlə yazılsın".

**Zeynal Nağdəliyev isə bildirib ki, 10 il əvvəl ilə müqayisə edilsə, Azərbaycanda seçki proseslərinin təşkili müqayisə edilməyəcək səviyyədədir**: "Qarşıdan gələn referendum da yüksək səviyyədə keçiriləcək. Seçki Məcəlləsinin heç bir müddəası pozulmamalıdır. Heç bir seçki məntəqəsində belə hala yol verilməməlidir. Maraqlı tərəflərin təxribatları, niyyətləri ola bilər, biz bunların qarşısını almalıyıq. Azərbaycanda sabitlikdir, prezident İlham Əliyevin yüksək nüfuzu var. Belə ab-havaya söykənərək konstitusiyaya dəyişiklik təklif edilib. Hər birimizin borcu odur ki, fəaliyyətimizlə bu ab-havaya kömək edək, xələl yetirməyək. Prezident hər birimizə tapşırıb ki, seçkilər qanununun hər bir müddəasına riayət edilməklə, keçirilməlidir. Əsas məsələlərdən biri də seçki komissiyalarının şəraitinin yaxşılaşdırılmasıdır. Bu sahədə hər şey yüksək səviyyədədir. Bu gün artıq seçicilər üçün daha yaxşı şəraitin yaradılması, səsvermə otaqlarının daha da genişləndirilməsinə diqqət yetirməliyik. Hazırda qarşımızda dayanan məsələlərdən biri odur ki, sentyabrın 3-dən başlayacaq təşviqat kampaniyası ilə bağlı açıq və qapalı yerlər müəyyən edək. Artıq təşviqat kampaniyası üçün 128 açıq və qapalı yer müəyyən edilib, onlar mətbuatda dərc ediləcək. Şəffaflıqla əlaqədar seçki məntəqələrində 1000 veb-kamera quraşdırılıb, seçki məntəqələrinin 20 faizi veb-kameralarla təmin edilib. Səslərin sayılması prosesi daha qısa vaxtda, tez, sürətli təşkil edilməlidir. Bu sahədə təkmilləşmə üçün veb-kameralardakı görüntülərin təşkili vacibdir. Referenduma çıxarılan məsələlər Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi ilə əlaqədardır. Eyni zamanda daha çevik idarəetmənin təmin edilməsi üçün təşəbbüslər irəli sürülüb. Artıq seçici nə baş verdiyini görür, oxuyur, müqayisəli təhlil də var. Əsas odur ki, seçicinin hüquqlarının həyata keçirilməsində hər hansı maneə olmasın. Bizim işimiz təşkil etməkdir. Əminəm ki, bu referendum əvvəlkilərdən daha yüksək səviyyədə keçiriləcək".

**Ziyafət Əsgərov da çıxışında deyib ki, Azərbaycanda referendum keçirilməsi təcrübəsi var, bu təcrübə 26 sentyabrda da referendumun yüksək səviyyədə keçirilməsində özünü göstərəcək**: "Bu gün dünyada heç bir dövlət deyə bilməz ki, mən tam hüquqi dövlətəm. Mərhum prezident Heydər Əliyev deyirdi ki, demokratiyanın başlanğıcı var, sonu yoxdur. Biz hüquqi dövlət quruculuğunda da ən yüksək səviyyəyə çatmaq üçün bu dəyişiklikləri həyata keçirməliyik. Xalqın iradəsinə cavab verməyən məsələləri qəbul etməməliyik. Bu referendum isə xalqın iradəsinə cavab verir və biz bunu həyata keçirməliyik. Referendumda qəbul edilən məsələlər xalqın iradəsini əks etdirir. Hər bir referendum aktı cəmiyyətin siyasi, iqtisadi barometridir. Referendum keçirilirsə, deməli, buna ehtiyac var".

**Rüstəm Usubov isə bildirib ki, prokurorluq orqanlarının referendumla bağlı əsas işi daxil olan şikayətlərə baxmaq, referenduma çıxarılmış məsələlərin mahiyyətini izah etməkdir. Baş prokurorun birinci müavini xəbərdarlıqlar da edib**: "Fiziki və hüquqi şəxslərin seçki və referendum prosesinə müdaxilə etməsi yolverilməzdir. İndidən bəziləri referenduma ləkə salmağa, "Konstitusiyaya dəyişikliklərə yox" vərəqələri yaymağa çalışırlar. Prokurorluq və hüquq-mühafizə orqanları belə halların qarşısını qətiyyətlə alacaq. Referendumun ən yüksək səviyyədə keçirilməsini təmin edəcəyik".

Oruc Zalov da çıxışında xəbərdarlıq edib. O qeyd edib ki, referendum zamanı ictimai asayişin qorunması üçün daxili işlər orqanları tərəfindən bütün tədbirlər görüləcək. Referendum ərəfəsində razılaşdırılmamış yürüşlərin, mitinqlərin, piketlərin keçirilməsinə imkan verilməyəcək: "Bu prosesə xələl gətirmək istəyənlərə heç bir imkan verilməyəcək. Seçki komissiyalarının müraciətindən 10-15 dəqiqə sonra polis qanun pozuntusu olan ünvanda olacaq. Qeydə alınmış təşviqat qrupları ayrılmış açıq və qapalı yerlərdə öz təşviqatını aparacaq. Bundan kənarda keçiriləcək aksiya və tədbirlərə yol verilməyəcək. Referendum günü seçki prosesinə xələl gətirmək istəyənlərin qarşısını almaq üçün polis əməkdaşları gücləndirilmiş iş rejimində çalışacaq".

**Onu da qeyd edək ki, referendumla bağlı YAP-ın yaratdığı "Yeni Azərbaycan" təşəbbüs qrupu artıq MSK tərəfindən təşviqat qrupu kimi qeydə alınıb. Müsavat Partiyası isə yaratdığı "Respublika" təşəbbüs qrupunun təşviqat qrupu olaraq qeydə alınması üçün lazımi sənədləri və 40 imzanı hələ ki, MSK-ya təqdim edməyib.**

❑ **Etibar SEYİDAĞA**

# İsa Qəmbərin NİDA-çı oğlu saxlandı və... buraxıldı

## Turqut Qəmbərə xəbərdarlıq edilib



**Avqustun 18-də NİDA Vətəndaş Hərəkatı İdarə Heyətinin üzvü Turqut Qəmbər təşkilatının həbsdə olan üzvü Elgiz Qəhrəman barəsində verilən apelyasiya şikayəti üzrə təyin edilən məhkəmə iclasına gedərkən həbs olunub. Bir neçə saat sonra isə onu sərbəst buraxıblar. Bu barədə T.Qəmbər facebook profilində məlumat verib.**

Musavat.com xəbər verir ki, T.Qəmbər aşağıdakı statusu yazıb: "Dostlar, indicə buraxıldım, hər şey qaydasındadır". T.Qəmbərlə birlikdə təşkilatın üzvü İsmi Şahzədə də mülki geyimli şəxslər tərəfindən saxlanılıb. Hər iki NİDA-çı avqustun 12-də saxlanılan hərəkat üzvü Elgiz Qəhrəmanın apelyasiya şikayəti ilə bağlı məhkəmə binasının önündə olublar. Onları saxlayan mülki geyimli şəxslər özlərini təqdim etməyiblər.

**Xatırladaq ki, avqustun 18-də Bakı Apelyasiya Məhkəməsində NİDA Vətəndaş Hərəkatının üzvü Elgiz Qəhrəmanın apelyasiya şikayətinə baxılıb.** Prosesi izləmək üçün məhkəmənin qarşısına toplaşan aktiv gənclərdən bir neçəsi polis tərəfindən saxlanılıb. Onlardan biri də gənc fəal İsmi Şahzadədir. Bu barədə Meydan TV-yə açıqlama verən fəal deyib ki, o, çəkiliş edərkən maneə ilə üzləşib: "Polislər "Azadlıq" radiosunun əməkdaşı İslam Şıxəlinin çəkiliş etməsinə mane oldular. Bu vaxt mən telefonumla baş verənləri çəkməyə başladım. Onlar mənim əlimdən telefonu almaq istədilər. Mən telefonu kənarda dayanmış jurnalistlər tərəfə atdım. Bu zaman Çevik Polis Alayının əməkdaşları və mülki geyimlilər məni tutub məhkəmənin arxa küçəsində dayanmış polis maşınına apardılar".

İsmi Şahzadənin sözlərinə görə, telefonunun və fotoaparatının yaddaşı yoxlandıqdan sonra onu sərbəst buraxıblar. T.Qəmbərlə bağlı Bakı Baş Polis İdarəsinin qarşısında çəkiliş aparan jurnalistlər Aytac Əhmədova və İlqar Vəliyev də eyni gündə saxlanılıb. Öncə jurnalist Aytac Əhmədovanın çəkiliş apardığı mobil telefonunu aldılar, sonra isə hər iki jurnalisti polis avtomobilinə oturdaraq polis bölməsinə apardılar.

Aytac Əhmədova və İlqar Vəliyev Xətai rayon Polis İdarəsinin 37-ci polis bölməsinə aparılıb və sonra azad buraxılıb. "Orada bizə şifahi xəbərdarlıq etdilər ki, polis idarəsinin ərazisində çəkiliş aparmaq olmaz. Kadrları silləndən sonra mobil telefonumu qaytardılar və bizi azad buraxdılar" - Aytac Əhmədova "Amerikanın Səs" radiosuna bildirib.

**T.Qəmbərin vəkili Nemət Kərimli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ona müvəkkili ilə getməyə icazə verməyiblər və o, 40-45 dəqiqə polis bölməsində heç nədən xəbərsiz gözləyib: "Onu başqa qapıdan çıxarıb, buraxıblar. Heç nədən məlumatım yoxdur. Dedilər, sadəcə gözlə. İndi isə niyə tutulması ilə bağlı hər hansı məlumatım yoxdur. Axşam görüşüb danışacağam".

**Günün sonunda T.Qəmbər niyə saxlandığını və saxlanma müddətində baş verənləri danışdı. Dedi ki, E.Qəhrəmanla bağlı keçirilən apelyasiya məhkəməsində iştirak etmək üçün orda olub. Binanın qabağında gözləyəndə bir neçə nəfər mülki geyimli şəxs ona yaxınlaşaraq, Bakı Şəhər Baş Polis İdarəsinə getməyini deyiblər:** "Vəkilim Nemət Kərimlinin mənimlə getməsinə icazə vermədilər. Orada isə mənimlə danışıq apardılar, Elgiz Qəhrəmanı niyə müdafiə etdiyim soruşuldu. Daha sonra isə dedilər ki, siz bilmirsiz o adam nə işlərlə məşğuldur, narkotiklə bağlı tutulub və sair. Bunu onun üzərində narkotik ittihamı var deyə dedilər".

**T.Qəmbər bildirdi ki, ona bundan sonra hakimiyyəti tənqid edəcəyi halda həbs olunacağı ilə bağlı xəbərdarlıq edilib. Müsahibimiz bu xəbərdarlıq müəllifinin kimliyi ilə bağlı konkret məlumata malik olmadığını dedi:** "Təbii ki, adını bilmədim o adamın. Amma məlum oldu ki, bizim fəaliyyətimizi izləyirlər və bundan sonra da izləyəcəklər. İzahat aldılar və daha sonra buraxdılar".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016



# PKK-nın yenidən fəallaşmasının arxasındakı sirr

Kənan RÖVŞƏNOĞLU

## Qiyama cəhddən sonra Türkiyədə daxili sabitliyi daha da zəiflətmək planları işə salınıb

**Son bir sutkada Türkiyədə 3 terror hadisəsi baş verib. Birinci terror Van vilayətinin eyni adlı mərkəzində İskele prospektində polis mərkəzi və polis evləri qarşısında baş verib. Bomba yüklü avtomobilin partladılması nəticəsində 3 mülki şəxs ölüb, 2-si polis olmaqla 40 nəfər isə yaralanıb. İlkin məlumata görə, PKK terrorçuları minalanmış avtomobili polis mərkəzi qarşısında saxladıqdan sonra oradan uzaqlaşıb və uzaqdan işə salmaqla partlayış törədiblər.**

İkinci terror hadisəsi Elazığ vilayətində Polis İdarəsi qarşısında baş verib. Minalanmış avtomobilin partlaması nəticəsində 3 polis şəhid olub, son məlumata görə 217 insan yaralanıb. Baş nazir Binali Yıldırımın mətbuata verdiyi açıqlamaya görə, yaralılardan 72 nəfəri artıq evə buraxılıb, xəstəxanada qalan yaralılardan 85-i polis, 60 nəfəri isə mülki insanlardır. 20 yaralının durumu isə ağırdır.

Üçüncü partlayış isə Bitlis vilayətinin Hizan rayonunda baş verib. Yol kənarına yerləşdirilən partlayıcının işə salınması nəticəsində 4 hərbçi şəhid olub, 5 nəfər isə yaralanıb. Daha sonra terrorçularla baş verən toqquşmada bir kənd mühafizəçisi öldürülüb, bir hərbçi isə yaralanıb.

Son 24 saat ərzində ardıcıl olaraq baş verən terror hücumları nəticəsində Türkiyədə onlarla insan yaralanıb, polis, hərbçi və mülki insanlar olmaqla çoxlu sayda insan dünyasını dəyişib. Hökumət bəyan edib ki, terrora qarşı mübarizə davam edəcək. Baş nazir müavini Numan Kurtulmuş isə şübhəli terror təşkilatı sıralamasını PKK, İŞİD və FETÖ olaraq qeyd edib. Baş nazir Yıldırım da terrorun "içəridən" bilgi aldığına işarə edib.

Məsələ ondadır ki, son zamanlar tez-tez gündəmə gələn iddialara əsasən son illərdə ölkənin cənub-şərq vilayətlərində həyata keçirilən əməliyyatların uğursuzluğa düçar olmasında "camaat"ın əlinin olması şübhələri gündəmə gətirilir. Dolayısı ilə indi hökumət terrorda daha çox "içəridən" bilgi sızdırılmasından, daxildəki gizli agentlərdən şübhələnir. Xüsusən də son zamanalrda PKK-nın yenidən fəallaşması və hökumət qüvvələrinə ağır təlafatlar verən terror aktları həyata keçirməsi, bir mənada hökumətin diqqətini daxildəki təmizləmələrdən yayındırmaq məqsədi daşıya bilər.

Bir sıra ekspertlərə görə, baş tutmayan qiyamın arxasında ən çox qorxulu olan ölkədə xaos yaradılması, Türkiyədə daxili sabitliyi pozmaqdır. Bununla da həm dövlət orqanlarında davam edən təmizləmələr dayanar, həm də hökumət ardıcıl terror hücumlarının qarşısını ala bilmədiyi üçün çıxılmaz duruma düşə bilər. PKK-nın qiyamdan həmən sonra deyil, müəyyən bir zaman keçdikdən sonra fəallaşması da deməyə əsas verir ki, bu prosesi idarə edən qüvvələr var.

Hədəf isə çox qəddardır. Türkiyənin içərisində xaos yaratmaq, ölkəni "soyuq savaş" dövründə olduğu kimi "daxili problemlərinə" qapanmış vəziyyətə gətirmək. Qiyam ssenarisi alınmasa da, uzaq planda əsas hədəf məhz Türkiyəni "içinə qapanmış" ölkəyə çevirməkdir. Qiyamdan dərhal sonra xalqın böyük qisminin səfərbər olması, mövcud iqtidara dəstək verməsi təxribat planlarının qarşısını müəyyən müddətdə kəssə də, tamamilə ortadan qaldırmayıb. Yaxın zamanlarda PKK ilə yanaşı, İŞİD də fəallaşsa, təəccübü görünməyəcək.

**Böyük plan Türkiyənin zəiflədilməsi, daxili qarışıqlığın daha da böyüməsidir. Bunun üçün bir çox vasitələrə əl atılıb, hələ daha bir neçə vasitələrə də əl atılacaq. İlk vaxtlarda ələvilərə qarşı təxribatçı çağırışlar bu istiqamətdə bir cəhd oldu, ancaq həmin dövrdə cəmiyyətin ayaqda olması, xalqın meydanlarda birlik, bərabərlik çağırışları etnik və dini qarşıdurmaların yaranmasını əngəllədi. Ancaq həmişə olduğu kimi PKK və terror kartı hələ də qalır və görünən odur ki, daxili sabitliyi zəiflətmək üçün müəyyən müddət istifadə olunacaq.**

# Nurçuluq millətçilik və türkçülüyə qarşıdırmı?

## Bu cərəyanın dünya gücləri tərəfindən yaradılması ilə bağlı iddialar səslənir; Mehriban Vəzir: "Bu sistem yalnız türkçülüyə zərbə vurmur..."

**Türkiyədə 15 iyul gecəsindən sonra qardaş ölkə ilə yanaşı, Azərbaycanda da əsas mövzulardan biri Nurçuluq təriqəti ilə bağlıdır. Türkiyədə olduğu kimi, Azərbaycanda da nurçuların həbslərinin həyata keçirilməsi hər iki ölkədə bu məsələnin nə qədər aktual olduğu üzə çıxır.**

Nurçuluq təriqəti ilə bağlı hər keçən gün yeni-yeni iddialar meydana çıxır. Əsas iddialardan biri bu təriqətin türkçülüyə görə dünya gücləri tərəfindən yaradılması ilə bağlıdır. Zaman-zaman belə fikirlər gündəmə gətirilib. Türkiyədəki hərbi qiyamdan sonra isə bu məsələ bir daha aktuallaşıb. Belə iddialar var ki, dünyada türkçülük ideyasının sürətlə yayıldığı bir zamanda nurçular meydana çıxıb və illər ötdükcə dünyanın öndə olan ölkələrinin dəstəyi ilə bugünkü gecə sahib olublar. Bu baxımdan bu təriqəti daha çox beynəlxalq güclərin antitürk siyasəti kimi qəbul edənlərin sayı günbəgün artmaqdadır.



**Yazıçı-publisist Mehriban Vəzir** də bu qənaətdədir ki, Nurçuluq cərəyanının yaradılmasında dünya güclərinin rolu var: Nurçuluq çox mürəkkəb, çoxqatlı və millətüstü, dövlətüstü bir sistemdir, dünya sistemidir. Bu, daha çox güclü dövlətlərin ilk növbədə, Türkiyə üçün, Türklük üçün, türk xalqları və müsəlman toplumları üçün nəzərdə tutulmuş bir teorisi və təcrübəsidir. Əhatəsi böyükdür, qeyri-türk və qeyri-müsəlman toplumlarda da bu eksperiment həyata keçirilib. Bəzi dövlətlərdə davam edir, bəzilərində yarımçıq dayandırılıb. Nurçuluq yalnız millətçiliyi zəiflətmir, dövlətçiliyi də zəiflədir. Ədaləti isə yox edir. Bircə şeyə fikir verin. Türkiyə təcrübəsi - bütün dövlət imtahanları, lisey, universitet, məmur, alim, professor və s.- bütün imtahanların cavabları onların əlindədir və bu camaata aid insanlara paylanır. Universitetləri, iş yerlərini, yüksək vəzifələri qazanırlar. Layiq olmayan insanlar qazanır, layiq olanlar kənarda qalır, hətta ədalətsizlikdən həyatı məhv olur, intihar edirlər. Bir dövlət üçün bu, faciədir. Yəni sözümün canı odur ki, bu sistem yalnız dediyiniz kimi türkçülüyə zərbə vurmur, dövlətin ədalətini sarsıdır, millətindən asılı olmayaraq vətəndaşın dövlətə inamını yox edir. Bu, çox ağır durumdur. Eyni zamanda stimullaşdırır; həyatda mövqe qazanmaq istəyirsənsə, bizə qoşul. Bizdən kənarda heç kimə gün-güzəran yoxdur. Həqiqətən bu, böyük faciədir, sanıram. Bu facieni dövlətlər üçün hazırlayan güclər böyük cinayətə qol qoyublar. Məqsəd isə birdir: hər şey bizim istədiyimiz kimi olacaq, xalqlar və dövlətlər bizə xidmət edəcək. Düşünürəm, bu sistem dərindən öyrənilməli və kökü qazılmalıdır. Bu istəmə maliyə axıdan və onu körükləyən dövlətlər utandırılmalıdır".

**M.Vəzir bu təriqətin dövlətləri zəiflətdiyini də qeyd etdi**: "Qeyd etdiyim kimi, nurçuluq sadəcə milli mahiyyəti deyil, dövlətləri də zəiflədir. Başda Türkiyə dövləti olmaqla, bir çox dövlətləri artıq içindən sarsıdıb, parçalayıb, vətəndaş qarşıdurması yaradıb. İndiki halda sevindirici olan yalnız budur ki, bu sistemin mahiyyəti haqda geniş danışılır, ifşa edilir, aydınlaşdırılır. Bilməyənlər də bilməlidir ki, bu sistem xalqlar üçün ağır bəladır, toplumlara xidmətkar, yaxşı təhsil görüntüsü ilə sırınmış bəd xassəli xəstəliyin metastazıdır. Qərb dövlətlərinin türk-müsəlman toplumlarını bu sistem içində baş örtüyünə bürüməsi, cəhalətə, xurafata yuvarlatması da nurçuluq sisteminin klassik damğalarından biridir. Əlbəttə, işin mahiyyəti çox ciddi və genişdir. Bu yöndə ciddi maarifçiliyə ehtiyac var. Xüsusilə, Azərbaycanda bu sistemin özü və onun simptomları elmli, tərəfsiz və ədalətli şəkildə öyrənilməlidir".

❑ Cavanşir ABBASLI

# Suriyaya döyüşməyə gedən azərbaycanlılara hökm oxundu



**Bakı Ağır Cinayətlər Məhkəməsində İŞİD-in tərkibində döyüşməkdə təqsirləndirilən Anar Mahmudov və Elvin Əsgərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Hər iki şəxsə hökm oxunub. Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən iclasda A.Mahmudov 14 il, E.əsgərov isə 12 il azadlıqdan məhrum ediliblər.**

Xatırladaq ki, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) ötən il Suriya və İraqda İŞİD-in tərkibində döyüşən azərbaycanlılardan ibarət qrupun üzvlərini saxlayıb. Nazirlik tərəfindən həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, həmçinin terrorçuluğa hazırlıq, yəni dövlət hakimiyyəti orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə və digər hüquqazidd əməllərinin törədilməsinə görə Azərbaycan Respublikasının vətəndaşları - Quliyev Namiq Şahid oğlu, Hacıverdiyev Xalid Əliağa oğlu, Əhmədov Taleh Mahir oğlu, Əsgərov Elvin Əsgər oğlu və Mahmudov Anar Kərəm oğlu şübhəli şəxs qismində tutulublar.

**Faktlarla bağlı Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi tərəfindən AR Cinayət Məcəlləsinin 12.1, 279.1-ci, 12.3,28,214.2.1, 12.3,28,214.2.3, 12.1,218.2-ci və 283-1.3-cü maddələri ilə cinayət işləri başlanılıb. Quliyev Namiq Şahid oğlu, Hacıverdiyev Xalid Əliağa oğlu, Əhmədov Taleh Mahir oğlu, Əsgərov Elvin Əsgər oğlu və Mahmudov Anar Kərəm oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs qətimkan tədbirləri seçilib. Müəyyən edilib ki, Namiq Quliyev, Xalid Hacıverdiyev, Taleh Əhmədov, Elvin Əsgərov və Anar Mahmudov 2012-2015-ci illər ərzində müxtəlif vaxtlarda Suriya və İraqın ərazisində həmin dövlətlərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan ayrı-ayrı silahlı birləşmələrin, o cümlədən "İslam Dövləti (İŞİD)", "Cəbhətül-Nusra" və "Cumdul-Xilafə" terrorçu təşkilatlarının fəaliyyətində iştirak ediblər.**

❑ İlkin MURADOV

# 7 milyon dolları mənimsənilən iş adamından şok açıqlamalar və təkzibolunmaz faktlar

"Altes Group"un səhmdarlarından olan Fətəli Novruzəliyev şirkətlər qrupunun rəhbəri Rüstəm Abdullayevin onun canına və malına qəsd etdiyini söyləyir; "özü İngiltərəyə getdi, məni qaynına döydürüb xəstəxanalıq etdi"

**Söhbət açacağımız mövzu yəqin ki oxuculara tanışdı. Bu barədə mətbuatda onlarla məqalə yazılıb. Tərəflərin çəkişməsi, qarşılıqlı ittihamları barədə mediada yazılar, müsahibələr getsə də bu problem hələ də öz həllini tapmır.**

Söhbət "Altes Group" şirkətlər qrupunda baş verən mübahisəli əmlakdan və pul vəsaitindən gedir. Sözügedən şirkətlər qrupunda payçı olan, Dağıstanda yaşayan iş adamı Fətəli Novruzəliyev mövzunu yenidən gündəmə gətirib. O, üzləşdiyi haqsızlıqla bağlı "Yeni Müsavat" qəzetinə müraciət edib.

Fətəli Novruzəliyev deyir ki, yeganə istəyi ona hücum edib fiziki xəsarət yetirənlər, bu sifarişi verənlər qanuna uyğun olaraq cəzalandırılsın.

"Yeni Müsavat"a açıqlamasında iş adamı məsələnin mahiyyətini qısa olaraq belə izah edib: "Mən iş adamı kimi 2000-ci ildən bəri "Altes Group" şirkətlər qrupunda qrupunun payçı olmuşam. Payçı olmaqdan əlavə, "Altes"in tikinti proyektlərinə küllü miqdarda sərmayə yatırmışam. Budan başqa "Altes Plaza" adlı proyektdən bir neçə mənzil almışam. Bütün bunların əvəzində "Altes Group" şirkətlər qrupunun rəhbəri Rüstəm Abdullayev mənə yüksək gəlirlər söz vermişdi".

Amma 2011-ci ildən bəri Rüstəm Abdullayev İngiltərəyə köçür və Fətəli Novruzəliyevin payına düşən gəliri, etdiyi sərmayəni və hətta aldığı mənzilləri belə verməkdən boyun qaçırır: "2012-ci ilin aprelin 4-də isə məni birdəfəlik susdurmaq üçün Rüstəm Abdullayev qaynı Asim İsgəndərov vasitəsi ilə hücum təşkil etdirdi. Nəticədə ağır bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirildim və cərrahiyyə əməliyyatı olundum".

Müsahibimiz deyir ki, ilkin istintaqın demək olar ki ilk günlərində cinayətin üstü tam açılır: "Rüstəmlə Asim arasında olan sms yazışmasından cinayətin kimlər tərəfindən, neçəyə və nə vaxt törədilməsi, hətta hücumun nəticəsi belə aydın görünür. Asim İsgəndərov istintaqa verdiyi ifadəsində də cinayətin onun tərəfindən təşkil olunmasını boynuna alır".

İş adamı iddia edir ki, "yuxarıdan" verilən əmrdən sonra cinayət işini aparan müstəntiqlər həmin ifadəni işdən çıxarırlar, ekspertiza rəyini dəyişdirirlər və nəticədə Rüstəm Abdullayev və Asim İsgəndərov məsuliyyətdən kənarda qalırlar. F.Novruzəliyev deyir ki, bu cinayət işini hətta dəyişilən vəziyyətdə ən gənc, təcrübəsiz müstəntiq oxusa, hücumun kimin tərəfindən təşkil olunduğunu biləcək.

**Fətəli Novruzəliyev yüzlərlə məktub yazır, televiziyalara, mətbuata müsahibə verir. Heç bir nəticəsi olmur. Özünün dediyinə görə, bunun səbəbi R.Abdullayevin yüksək vəzifəli adamların arxasında çox məharətlə gizlənməsidir**: "Uzun müddət Rüstəm Abdullayevə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov himayəçilik edirdi. Məlum hadisələrdən sonra Rüstəm Fərid Əliyev ad-soyadlı şəxsin arxasında gizlənməyi qərar verdi. Amma bu yaxınlarda Fərid Əliyevin mətbuata verdiyi müsahibədən göründü ki, Rüstəm onu da aldadır. Hətta Fərid müəllim prokurorluğa şikayət etdiyini bildirdi".

Fətəli Novruzəliyevin sözlərinə görə, Rüstəm onun 7,5 milyon dollarını və başqa şəriklərin küllü miqdarda vəsaitini mənimsəyib: "Əlində bu qədər pul olan Rüstəm özünə himayəçi olaraq təzə "Eldar Mahmudov" tapa bilər, bəlkə də artıq tapıb. Amma bu himayəçilər hamisi müvəqqətidir. Haqq isə əbədidir".

Fətəli Novruzəliyev redaksiyamıza Rüstəm Abdullayevlə Asim İsgəndərovun sms yazışmasını da təqdim edib. Sms yazışmasındakı 00447511001010 nömrəsi Rüstəm Abdullayevə, 0502109383 nömrəsi isə Asim İsgəndərova məxsusdur. F.Novruzəliyev bildirir ki, R.Abdullayevin onu döydürmək üçün A.İsgəndərova təklif edir. İkinci bu işdən yayınmaq istəyir.

*04/04/2012, 15:47:07, 0502109383, 00447511001010, Pozvoni mne.*

*04/04/2012, 16:20:57, 0502109383, 00447511001010, Pozvoni.*

*04/04/2012, 17:08:11, 0503897040, 0502109383, Qaqas heckim razilasmadi. deyillar busaat harsey poxdu.*

*04/04/2012, 18:07:18, 0503897040, 0502109383, Qaqas manim pula ehtiyacim var ama bu prablemdi. man nisanliyam lazim deyil qoy basqalarina deyak.*

*04/04/2012, 18:08:15, 0502109383, 0503897040, Adam varsa denende brat, birincisi mende istemerem biz eliyek.*

*04/04/2012, 18:11:55, 0503897040, 0502109383, Qaqa hec mina yaxin duran yoxdu 5 min 10 minnan danis.*

*04/04/2012, 18:16:00, 0502109383, 0503897040, Eshidirsen Em*

*04/04/2012, 19:29:34, 0502109383, 00447511001010, Polada tut net.*

*04/04/2012, 20:49:30, 0502109383, 00447511001010, Pozvoni ya s Faridom obshalsa I za etogo ne podnyal trubku.*

*04/04/2012, 21:14:47,0502109383, 0552369696, Normalnidi hele oturublar.*

*04/04/2012, 21:30:10, 0502109383, 0554090013, Ok!*

*04/04/2012, 21:51:11, 0502109383, 00447511001010, Rustam vse normalno ego razyebali kak nado. Pozvoni*

*05/04/2012, 11:23:22, 0502109383, 00447511001010, Esli ona ne poyedit v otdelenie, mne dengi dat?*

*05/04/2012, 14:10:52, 0517848862, 0502109383, Emindi zang ela bu nomriy.*

❑ **E.MƏMMƏDƏLİYEV**

P.S. Yazıda adları keçən şəxsləri dinləməyə, mövqelərini dərc etməyə hazırıq.

# Oliqarxlar pullarını ölkədən çıxarır - səbəb

"Yaxşı olar ki, onlara qeyri-rəsmi formada ən yüksək səviyyədə xəbərdarlıq edilsin..."

**Ölkədə ciddi maliyyə çatışmazlığı olduğu, hökumətin xarici investorları ölkəyə cəlb etməyə çalışdığı bir vaxtda oliqarxlar vəsaitlərini xaricə çıxarmağa çalışır. Bu barədə mətbuatda iddialar yer alıb. Belə ki, 2015-ci ildə Azərbaycan vətəndaşları və şirkətləri Türkiyənin müxtəlif bölgələrində 158 şirkətin qurulmasında iştirak ediblər.**



Rəsmi məlumata əsasən, 2013-2015-ci illərdə Azərbaycan kapitalı ilə bu ölkədə yeni qurulan şirkətlərin sayı 507 olub. Türkiyənin İqtisadiyyat Nazirliyinin məlumatına görə, son 3 il ərzində Azərbaycan şirkətlərinin Türkiyədə fəallığı təxminən 40 faiz artıb. Azərbaycanda vətəndaşları həmçinin Gürcüstanda ən iri investorlar olaraq tanınırlar.

Gürcüstan Milli Statistika Xidmətinin açıqladığı məlumata görə, ötən il Azərbaycan bu ölkənin iqtisadiyyatına 550 milyon dollar birbaşa investisiya yatırıblar. Təəccüblü deyil ki, bu investorların əksəriyyəti məhz oliqarxlardır. Bəs onların ölkədən pul çıxarmasının qarşısını necə almaq olar?

"Yeni Müsavat" bu sualı iqtisadçı ekspertlərlə dəyərləndirib. İqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, Azərbaycandan həm rəsmi, həm də qeyri-rəsmi formada çıxarılan vəsaitlərin həcminin məhdudlaşdırılması, onlara nəzarət mexanizminin gücləndirilməsi gündəmdə olan bir məsələdir və bu istiqamətdə müəyyən iş aparılır: "2016-cı ilin əvvəlindən bu məsələ gündəmdədir. Bir məsələni də nəzərə almaq lazımdır ki, qanuni şəkildə ölkədən çıxarılan vəsaitlərə qarşı hər hansı məhdudiyyət tətbiq edilmir. Bəzi ölkələrdə olub ki, müəyyən dövr üçün ölkədən investisiya məqsədli pul çıxışları tamamilə qadağan olunub. Belə təcrübələr var. Azərbaycanda hər hansı bu kimi addım atılmayıb. Bir məsələni də nəzərə almaq lazımdır ki, söhbət əgər yerli oliqarxlardan gedirsə, onlar mövcud şəraitdə rahatlıqla istənilən qədər vəsaitlərini ölkədən çıxara bilərlər. Bu kimi ölkələrdə atılacaq əsas addımlardan biri o ola bilər ki, qeyri-rəsmi formada oliqarxlara ən yüksək səviyyədə vəsaitlərini ölkədən çıxarmamaqla bağlı xəbərdarlıq edilsin. Yayılan məlumatlara görə, bu kimi tövsiyələr olub, lakin hələ də vəsait axını davam edir. Təbii ki, əvvəlki dövrlərdə olduğu qədər ciddi vəsaitlər ölkədə çıxarıla bilmir. Amma bugünkü maliyyə vəziyyətini, ölkə iqtisadiyyatının durumunu nəzərə alsaq, çıxarılan hər bir dolların həm ölkə iqtisadiyyatına, həm də milli valyutanın dəyərinə mənfi təsirləri olub".

**İqtisadçı-hüquqşünas Əkrəm Həsənov** da "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, qanunvericilik baxımından bu gün hər bir vətəndaş Azərbaycandan istədiyi qədər pul çıxara bilər: "Hazırda bununla bağlı məhdudiyyət yoxdur. Valyuta tənzimi haqqında qanunvericiliyimiz buna imkan verir. Amma eyni zamanda da Azərbaycanda çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə nəzarət haqqında qanunvericilik var, maliyyə monitorinqi xidməti var. Bu xidmətin borcudur ki, Azərbaycandan çıxarılan pulların hansı yolla, qanuni yoxsa qanunsuz yolla əldə edildiyini müəyyənləşdirsin. Problem də elə bu sahədədir. Azərbaycandan istənilən vətəndaş, istədiyi qədər pul çıxara bilər, amma o sübut etməlidir ki, həmin pulu qanuni yolla əldə edib. Pulun çıxarılmasının da iki yolu var, ya bank köçürməsi ilə , ya da nağd şəkildə çıxartmalıdır. Bank vasitəsilə pulu ölkədən çıxararkən bu açıq-aşkar görünür, bu köçürmələr haqqında maliyyə monitorinqi xidmətində məlumatlar olur. Bu xidmət də həmin pulların haradan, necə qazanıldığını müəyyənləşdirməlidir. Ölkədən pulların nağd şəkildə çıxarılmasına da nəzarət var".

**Ekspert onu da diqqətə çatdırdı ki, adətən pulların xeyli hissəsi qanunsuz şəkildə çıxarılır, heç yerdə qeydə alınmır:** "Buna nəzarət isə sərhəd-gömrük xidmətinin işidir. Lakin istisna deyil ki, bu pulların böyük bir hissəsi də qanuni yollarla çıxarılır. Sadəcə, maliyyə monitorinqi xidməti öz işini gücləndirməlidir. Hər dəfə məlumat əldə etməlidir ki, ölkədən bu qədər pul çıxaran adam kimdi, bu pulu haradan əldə edib. Əgər bu fəaliyyət olsa, təbii ki, ölkədən bu qədər pul çıxmaz".

❑ **Nərgiz LİFTİYEVA**

# Qorbaçovun iyul devrilməsi



**Samir SARI**

**Qorbaçovun vəzifədən götürüləcəyi, daha dəqiqi, artıq götürüldüyü xəbəri dünya üzrə ilk dəfə bizim kənddə yayıldı. O zaman SSRİ KQB-sinin, ABŞ MKİ-sinin, İsrail "Mossad"ının, İngiltərə Mİ-6-nın bu işdən xəbəri yox idi, amma bizim kənddə artıq bilirdilər.**

Özü də bu xəbər yayılanda 1991-ci ilin avqust ayının bu günləri deyildi, iyul ayının ortalarıydı. Dadaş kişinin oğlu Urmanı tapsam, o xəbərin yayılma gününü də dəqiqləşdirərəm. Çünki o xəbər məhz onun toy günündə yayıldı. Nə də olmasa, adam toy gününü unutmuş olmaz.

İsti bir iyul axşamıydı, saat 10-a 20 dəqiqə qalmışdı, Dadaş kişinin kəndin şərq qurtaracağındakı həyətində toydaydıq, birdən Sərraf kişinin oğlu Ağamoğlan hövlnak gəlib toy əhlinə, daha dəqiqi, həndəvərdəki adamlara xəbər verdi ki, indicə Şuşadan gəlir və yolda bir sanballı, bazburudlu adamdan eşidib ki, bu gün günorta SSRİ prezidenti Mixail Sergeyeviç Qorbaçovu vəzifəsindən götürüblər.

Əvvəlcə heç kim Ağamoğlana inanmadı. O, 22-23 yaşında oğlan idi və Şuşada hansısa texnikumda oxuyurdu. Xəbərin təkcə başlığı Ağamoğlanın başından, cüssə-cürəpəsindən çox böyük idi.

Açığı, mən xəbərə inanmayanlardan, amma inanmaq istəyənlərdən, hətta bunun məhz belə olmasını arzulayanlardan idim. Amma bir var, bu xəbəri mərkəzi televiziyanın "Zaman" xəbərlər proqramından eşidəsən, bir də var, çəkisi 50 kilonun altında olan Ağamoğlandan.

3-5 dəqiqə vaxt da Ağamoğlanın xəbəri harda, hansı vəziyyətdə, kimdən eşitdiyini dəqiqləşdirməyə getdi. Ağamoğlan tanıdığı və inandığı bütün müqəddəslərə and içdi ki, gerçəkdən belə bir xəbər eşidib. Saat oldu 9.50. Daha toyda, türkün sözü, fazla ləngimədən üz qoydum evə ki, "Zaman"a baxım. İlk xəbər mütləq Qorbaçovun vəzifədən götürülməsi olacaqdı. Evə 5 dəqiqə də tez çatdım. Böyük bir həyəcanla "Zaman"ın başlanmasını gözlədim. "Zaman" başladı və elə startdaca Qorbaçovu göstərdilər. Sonra da böyük sovet dövlətində gedən tikinti-quruculuq işləri, əkin-biçin məsələlərinə dair süjetlər verildi. Böyük məyusluq yarandı.

Ertəsi gün kəndin parkında Ağamoğlanı tutub hoydu-hoyduya götürdük. O yenə and içdi ki, belə eşidib, özü də bunu deyən adam çox "salidni adam" olub.

Biz Ağamoğlanı danlamaqdaykən bir nəfər qıraqdan dedi ki, eybi yox, heç kafər bəndənin adı "dedi-dedi"yə düşməsin, düşdüsə, işi bitdi, görərsiniz, çox keçməz Qorbaçovun xəbəri gələr.

Əslində biz 20 Yanvar faciəsinə görə Qorbaçovun devrilməsi ilə yanaşı öldürülməsini də istəyirdik.

Üstündən bir ay keçdi, gözlədiyimiz xəbər gəldi. Avqustun 19-da səhər televizoru açdıq ki, QKÇP (Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi) adlanan qrup Krımda istirahətdə olan Qorbaçovu devirib.

Amma açığı, biz bu xəbərə sevinmədik. Çünki Qorbaçovun yerinə gələnlər yaxşı görünmürdülər. Yaxşı olardı ki, onlar Qorbaçovu devirsinlər, amma özləri də devrilsinlər (sonradan məhz elə oldu).

Kəndimizin analitikləri parkın ortasında QKÇP-yə üç gün möhlət verdilər, dedilər ki, bunlar hakimiyyətdə ən çoxu üç gün qala bilərlər. Çünki QKÇP-nin başçısı Gennadi Yanayev dövlətin taleyi üçün məsuliyyəti öz üzərinə götürdüyü barədə yazılı mətni oxuyanda əlləri əsmişdi və bütün ölkə bunu görmüşdü.

Bir nəfər daha dəqiq proqnoz verdi, dedi ki, əgər Yeltsin bunların tərəfinə keçsə, heç, keçməsə, bunlardan hökumət olmayacaq. Elə də oldu. Yeltsin bir tankın üstünə çıxıb xalqı etiraza səslədi və QKÇP süqut etdi. Qorbaçov təyyarə ilə Moskvaya qayıtdı, QKÇP üzvlərini iki-iki cələkləyib türməyə basdılar. Onların içində 20 Yanvar faciəsini törədənlər (Yazov, Kryuçkov) də vardı deyə, bu tutqular bizə ləzzət elədi.

Üstündən 25 il keçib, amma hələ də aydın deyil ki, Qorbaçovun devrilməsi xəbərini bir ay öncədən Ağamoğlana niyə demişdilər. Adam indi şübhələnir ki, ola bilər, o vaxt bu xəbəri KQB-nin sədri Kryuçkov yaydırıbmış ki, xalqın rəyini öyrənsin, görsün, camaat nə deyir, nə danışır.

Tərs kimi, o vaxtdan bəridir Ağamoğlanı görmürəm ki, o "salidni adam" barədə soruşum.

**QKÇP-ni törədənlərin əksəriyyəti ölüb-gedib, Qorbaçov isə hələ də sağdır. Amma 25 il öncə biz onun ölümünü də çox istəyirdik - həm devrilməsini, həm də öldürülməsini.**

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016

# Məlahət Mürşüdlü “gülənçi” adlandırıldı, cavab gecikmədi

## Moderator.az saytı xanım ekspertin Misir Mərdanovdan qrant alması barədə məqalə dərc edib; yazı ciddi müzakirələrə səbəb olub


Məlahət Mürşüdlü

**Moderator.az saytı təhsil eksperti, Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlünün Fətullah Gülən tərəfdarı olması və vaxtı ilə sabiq təhsil naziri Misir Mərdanovdan qrant aldığı barədə sensasion yazı dərc edib. Məqalədə məlumatın M.Mürşüdlünün rəhbəri olduğu təşkilatın keçmiş üzvlərindən biri tərəfindən verildiyi qeyd olunur.**

Sayt həmin şəxsin kimliyini gizli saxlayaraq, onun məqaləsini dərc edib. Məqalədə bu fikirlər yer alır: “Son günlər bir neçə saytda keçmiş təhsil naziri Misir Mərdanovun Qafqaz Universiteti və ”Çağ Öyrətim" şirkətinin şəbəkəsinə daxil olan orta məktəblər barədə bəlağətli çıxışının video çarxı geniş rezonansa səbəb olmuşdu. Həmin çıxışda Misir Mərdanov bir qədər də uzağa gedərək Qafqaz Universitetini Azərbaycan xalqının milli sərvəti adlandırmışdı. Bundan bir neçə gün sonra saytların birində Müsavat Partiyasının tanınmış funksionerlərindən biri, “Azad Müəllimlər” Birliyinin sədri Məlahət Mürşüdlünün bu mövzuda müsahibəsi dərc olunub. Məlahət xanım Misir Mərdanovu heç cür təkzib edə bilməzdi. Çünki xanım Mürşüdlü adı olub, özü olmayan bir təşkilatın adından vaxtilə Misir Mərdanovdan xeyli qrant alıb".

**Məlahət xanım müsahibəsində deyir:** “Xatırlatmağa dəyər ki, universitetin təsisçiləri bir neçə göstəricilərə görə ilahiyyatçı Gülənin yaxınlarının strukturu hesab olunur”. Məlahət Mürşüdlü belə bir ifadədən sonra Qafqaz Universitetinin idarəçiliyinin dəyişdirilməsinin əleyhinə olmaqla, hökumətin bu sahədəki siyasətinə qarşı çıxır. Məlahət Mürşüdlünü buna sövq edən əsas səbəblərdən biri də onun Türkiyə Dəyanət Liseyinin müəllimi olmasıdır. Göründüyü kimi gülənçilər həm də Vətəndaş cəmiyyəti sektorunda özlərinə yer tapa biliblər".

Yazıda M.Mürşüdlünün bir il öncə Müsavatdan istefa verməsinə baxmayaraq, hələ də partiya funksioneri kimi təqdim olunması, eləcə də məqalə müəllifinin adının çəkilməməsi xəbərin doğruluğuna şübhələr yaradıb. Bu da geniş müzakirələrə səbəb olub. İttihamlarla yanaşı, xanım ekspertdən mövqe alınmadan yazının dərc olunması saytı ciddi tənqidlərə məruz qoyub.

**M.Mürşüdlü qəzetimizə açıqlamasında barəsindəki ittihamlara belə cavab verdi:** “Moderator.az saytında barəmdə şər-böhtanlarla dolu yazı dərc olunub. Bu, peşəkarlıqdan uzaq, heç bir mövqe alınmadan dərc olunan cızma-qaradan başqa bir şey deyil. Şəxsimə, təşkilatım adıma belə iftira dolu böhtanlar yağdırılır. Sizin saytdan istifadə edərək, Azərbaycan və Türkiyə cəmiyyətlərinə, xəbəri yayan moderator.az saytına, dostlarıma müraciət edib deyirəm ki, rəhbəri olduğum təşkilat heç zaman Misir Mərdanovdan qrant almayıb. Yazıda qeyd olunur ki, guya qrantlar almışam, bəzi yerlərə sərf etmişəm. Bu - ağ yalandır. Eyni zamanda adı çəkilməyən, məqaləni yazan şəxslə heç bir bağlılığım yoxdur. Bildirilir ki, guya mən müsahibəmdə Gülənin məktəblərini tərifləmişəm. Bu fikirləri də rədd edirəm. Nə yazırlar qoy yazsınlar. Bundan sonra da quraşdırmalarına davam etsinlər. Allah Türkiyə və Azərbaycanı qorusun”.

**Təhsil eksperti ölkədə olmadığını, Azərbaycana qayıtdıqdan sonra hüquq müstəvisində bəzi addımlar atacağını da qeyd etdi:** “Məndə olan məlumata görə, bu saytın redaktoru Zülfüqar bəy də Bakıda deyil. Dostlarımdan biri xəbər verdi. Sözsüz ki, Bakıya gələndə bu məsələni davam etdirəcəm. Hüquqi müstəvidə bu xəbərin araşdırılmasına nail olacam”.

❑ Cavanşir ABBASLI

# Misir Mərdanova qarşı iddia: "Gülən məktəblərini himayə edib"

## Etibar Əliyev: “Onun bu şəbəkənin fəaliyyətinin genişlənməsində rolu böyük olub”

## Firudin Cəlilov: “Burada Misir Mərdanovun heç bir günahı yoxdur”



**Hazırda gündəmin əsas mövzularından biri də Azərbaycanda Fətullah Gülən məktəblərinin şəbəkələşməsində rolu olanların onunla əlaqəsinin olub-olmamasıdır. Məlum olduğu kimi, Qafqaz Universiteti, türk özəl liseylərinin Azərbaycana gəlişi əsasən sabiq təhsil naziri Misir Mərdanovun dövrünə təsadüf etdiyindən onun adı da Fətullah Gülən tərəfdarlarının içində hallanır. Onun zamanında FETÖ-çulara ciddi dəstək verdiyi deyilir.**

*Bəs, görəsən həqiqətənmi Misir Mərdanov da Gülənin adamıdır? O nazir olduğu dövrdə Azərbaycanda möhkəmlənən Gülən məktəblərinin yayılmasına dəstək veribmi?*

**XXI əsr Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** “Yeni Müsavat”a açıqlamasında Gülən məktəblərinin Misir Mərdanov tərəfindən dəstəkləndiyini bildirdi: “Yaxşı xatırlayıram, 27 noyabr 2012-ci ildə Bakıda ”Çağ" Öyrətim İşlətmələri şirkətinin 20 illik yubileyi qeyd olunurdu. Gülüstan sarayında baş tutan tədbirin açılışında Türkiyə prezidenti Abdullah Gülün təbrik məktubu oxunub. Məndə olan məlumata görə, bizim prezidentin yubileyə təbriki olmayıb. Misir Mərdanovun bu şəbəkənin fəaliyyətinin genişlənməsində rolu böyük olub. O, onların bütün tədbirlərində iştirak edir və şəbəkəyə daxil olan təhsil müəssisələrini göylərə qaldırırdı. Elə həmin tədbirdə də Mərdanov “maraqlı” fikirlər səsləndirib: “20 ildir ki, ”Çağ" Azərbaycan təhsili üçün bir örnəkdir. “Bu şirkət Azərbaycan təhsilinə dünya təcrübəsinə əsaslanan bir yenilik gətirdi. 20 il ərzində ”Çağ" öyrətim Azərbaycanın təhsil sisteminin tərkib hissəsində özünəməxsus bir yer tutub. Onun fəaliyyəti ölkə təhsili üçün hər zaman nümunə olub və bu gün də işini uğurla davam etdirir".

Öz ölkəsinin təhsil sistemini bu cür şəbəkələrin kölgəsində axtaran təhsil nazirinin maraqlarını heç kim soruşmurdu. Çox vaxt bu məktəblərin uğuru barədə ağzı dolusu danışanlara “o məktəblər ən yaxşı şagirdlərimizi seçir, onlara dərs verir” ifadəsini işlətmirdik. Şəbəkənin rəhbərləri yaxşı müəllimləri də nəzərdən qaçırmırdılar. Dərhal özünküləşdirirlər. Fikrimcə, milli təhsil sistemimiz gücləndikcə boşluqlar aradan qalxacaq".

Müxtəlif mətbuat orqanlarından Elmar Qasımovun da Fətullah Gülənlə əlaqəsinin olması ilə bağlı iddialara gəlincə, Etibar Əliyev bildirdi ki, o zaman Misir Mərdanov nazirlikdə özünəməxsus kurasiya yaratmışdı, həmin müddətdə ali təhsil də Misir Mərdanovun öz şəxsi kurasiyasında idi: “Bu məktəblər, eləcə də ali məktəblər Elmar Qasımovun kurasiyasında deyildi. Təmizləmə məsələsinə gəlincə, Elmar Qasımov dedi ki, orada əksər müəllimlər öz xahişi ilə işdən azad olunublar, bir çoxu ilə müqavilə müddəti bitib. Bu, Qafqaz Universitetinin Bakı Ali Neft Məktəbinin idarəsinə verilməsi ilə bağlıdır və bunu daxili idarəçilik qaydaları kimi qiymətləndirmək lazımdır”.

**Sabiq təhsil naziri Firudin Cəlilov** isə Misir Mərdanovun prosesdə hər hansı rolunun olduğunu istisna etdi və bildirdi ki, məsələ daha yüksək səviyyədə həll olunub: “Orada Misir Mərdanovun heç bir günahı yoxdur. Onlar 90-cı ildən gəlib Azərbaycanda tədricən yerləşirdilər. Məndən qabaq da gəlmişdilər. Sadəcə mən bir il nazir olduğum müddət ərzində onları mümkün qədər təmizlədim. Məndən sonra isə onlar çox yüksək səviyyələrdən tapşırılmaqla Azərbaycana gəldilər. Təsəvvür edin ki, Tansu Çillər, Turqut Özal xahiş edib. Çox Yüksək səviyyələrdə bu məsələ həll olunub. Burada Misir Mərdanovun günahı yoxdur”.

**Firudin Cəlilov bildirdi ki, özünün nazir olduğu dövrdə Gülən məktəblərinin Azərbaycana gəlməsinə qarşı mübarizə aparıb:** “Mən o zaman onların qarşısını almağa çalışdım. Çünki onların içini bilirdim. Bilirdim ki, təhsil adı altında nə işlər görürlər. O səbəbdən çalışdırdım təhsilə buraxmayam. Bu gün də Azərbaycanda Fətullah Gülənin adamları var və təhlükə qalmaqdadır. Yadınızdadırsa, mən Türkiyəyə 2 min nəfər tələbə göndərdim. Sonradan mən vəzifədən getdim deyə, onlara nəzarət edə bilmədim. Mənə xəbərlər gəlirdi ki, o uşaqların yarısını Gülən öz tərəfində keçirib, onlara yardım edirlər, ev tutur, kirayə pulu verirlər. Təbii ki, onların içindən müəyyən adamları vəzifələrə yerləşdirdilər. Bu gün də o adamlardan vəzifədə olanları var. Təhsil müəssisələrinə gəlincə, ”Araz" kurslarında qorxulu bir şey yox idi, o kurslar təhsil verirdi. Amma onların Türkiyədə, Azərbaycanda və başqa ölkələrdə açdıqları liseylər ki var, orada Amerika üçün casuslar hazırlayırdılar. Sonra onları vəzifəyə gətirirdilər. Gördünüz də, Türkiyədə o sistem olmadı ki, içindən onları adamları çıxmasın. Prokurorluqda, məhkəmədə, orduda, ən çox da təhsildə, səhiyyədə adamlarını yerləşdiriblər".

Qeyd edək ki, haqqında səslənən ittihamlara cavab almaq üçün dəfələrlə sabiq təhsil naziri Misir Mərdanovla əlaqə yaratmağa çalışsaq da, cəhdlərimiz baş tutmadı. Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.

❑ Nərgiz LİFTİYEVA

# İlhamə Quliyevanın məzarı üstündəki gülləri oğurladılar

## Mərhumun bacısı: “Bu, vandalizmdir!”



**Doğum günündə mərhum Xalq artisti İlhamə Quliyevanın məzarı üstə qoyulan gül çələngləri dağıdılaraq, oğurlanıb. Bu barədə xalq artistinin bacısı Gülbahar Quliyeva “Yeni Müsavat”a açıqlamasında bildirib.**

Onun sözlərinə görə, hadisə günorta saatlarından sonra baş verib: “Dünən səhər biz bacılar və qardaşı uşaqları ilə birlikdə onun qəbrinin ziyarətinə getmişdik. Orda Novruz Aslan tərəfindən “Ağ çiçəyim”, “Qızıl Aypara Cəmiyyəti”nin və biz də biz bacılar tərəfindən ithaf olunan gül çələngləri və 10 ağ qızıl gülləri var idi. Günortadan sonra, hava hələ qaralmamışdı, bizə zəng edib dedilər ki, həmin gülləri dağıdıb, oğurlayıblar. Bu necə baş verə bilərdi axı?! Fəxri Xiyabanın işçiləri, nəzarətçiləri, kameraları var. Bu oğurluq da deyil, bu, vandalizmdir! “Qızıl Aypara Cəmiyyəti” tərəfindən göndərilən çələngin üzərindəki lenti qırıblar ki, bilinməsin bu kim tərəfindən gəlib, “Ağ çiçəyim”in çələngi ümumiyyətlə, yoxa çıxıb, biz qoyduğumuz çələngin isə sadəcə, yaşıllıqları qalmışdı. Ayıbdır! Bunu edən yerli ermənilər, Allahı tanımayan, şəxsiyyətsiz insanlardır. İlhamə yadımızdadır və bundan sonra ancaq və ancaq ona Quran, Yasin lazımdır. Bu cür şou ona lazım deyildi. Bunu edənlərin məzarı üstə nə edəcəklər, onu Allah bilir".

Gülbahar Quliyeva olayla bağlı Xalq artistinin dəfn olunduğu II Fəxri Xiyabanın rəhbərliyini də qınayıb: “Onlar hara baxır? Bu hadisəni törədənlər onların yanından gəlib keçib. O balaca bir şey deyil axı götürüb qaçsınlar”.

**Xatirladaq ki, avqustun 17-i mərhum sənətçinin doğum günü idi. Yaşasaydı 73 yaşı tamam olacaqdı. O, bu ilin fevralın 25-də dünyasını dəyişib.**

❑ Xalidə GƏRAY

# Eldar Mahmudovun baş istintaqçısının həbsi tələb olundu

## "Mahmudovçu" müstəntiq intihara sürüklənmiş sabiq MTN zabitinin qardaşı ilə üzləşdirildi - yeni ilginc gəlişmələr



**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) İstintaq Baş İdarəsinin rəisi, general-mayor Mövlam Şıxəliyevin həbsi tələb olunur. Ötən ilin oktyabrında MTN-dəki məlum "təmizləmələr"dən sonra azadlıqda qalanlardan biri də Mövlam Şıxəliyev oldu.**

Eldar Mahmudova yaxınlığı ilə tanınan, onun əsas kadrları sırasında ilk yerləri tutan M.Şıxəliyevin azadlıqda qalması "MTN işi" üzrə istintaqa kölgə salır. Sahibkarlar, ən müxtəlif peşə sahibləri qanunsuz olaraq MTN-ə aparıldıqlarını, orada İstintaq Baş İdarəsində sorğu-suala, qanunsuz həbsə məruz qaldıqlarını, böyük paralarının əllərindən alındığını deyirlər. M.Şıxəliyev həmin idarənin rəisi olaraq bu məsələlərdən xəbərsiz olması sadəcə, inandırıcı görünmür. Xəbərsiz olubsa belə o, rəhbərlik etdiyi idarədə baş verənlərə görə məsuliyyət daşıyır. Həmin əməllər isə faktiki, cinayət əməlləridir.

Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) bir qrup əməkdaşı baş prokuror Zakir Qaralova və "Azadlıq" qəzetinə müraciət ediblər. Adlarının açıqlanmasını istəməyən xüsusi xidmət əməkdaşları müraciəti keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudov və MTN-in Baş İstintaq İdarəsinin sabiq rəisi Mövlam Şıxəliyevlə bağlıdır.

### Pulun 50%-i Eldar Mahmudova, 45%-i Mövlam Şıxəliyevə, yerdə qalanı isə icraçılara çatırmış!

DTX əməkdaşları yazır: "Eldar Mahmudovun özünün və dəstəsinin əsas simalarından olan MTN-nin İstintaq Baş İdarəsinin sabiq rəisi general-mayor Mövlam Şıxəliyevin azadlıqda qalması cəmiyyətdə narazılıqla qarşılanıb. Bu barədə mətbuatda yazılanlarla DTX-nin bəzi əməkdaşları tanış olaraq bildiririk ki, biz də həmin şəxsin cəzasız qalmasına təəccüblənirik. Həmin şəxs uzun illər ərzində daxili işlər orqanlarında, keçmiş "OBXSS"-də əməliyyat müvəkkili işləyib və işə laqeyd münasibəti nəticəsində, korrupsiya faktlarına görə bir neçə dəfə vəzifədən azad edilib. Lakin Eldar Mahmudov kimi himayədarları yenidən vəzifəyə bərpa ediblər. Eldar Mahmudov nazir gələndə istintaq şöbəsinin rəisi vəzifəsinə təyin edilir. Bir müddətdən sonra isə baş idarə rəisi olur. Onu yalnız pul maraqlandırır və özünə dəstə yaradıb pulu olan vətəndaşları şantaj edərək pulunu alırdı. Sonra həmin puldan özünə 45 faiz, nazirə isə 50 faiz götürürdü, qalanını da dəstəsinə verirdi".

### Heydər Babayevin qohumundan 1 milyon dollar aldılar

Müraciət müəllifləri daha sonra yazır: "Mövlam Şıxəliyev İstintaq Baş İdarəsinin rəisi olduğu dövrdə MTN-nin şərləyib tutdurduğu və həbsə atdırdığı adamlara hüquqi don geyindirilməsi, leqallaşdırılması da məhz bu idarədə baş tutub. Heç bir əsas olmadan müxtəlif imkanlı adamların barəsində cinayət işi qaldırılıb və onlar həbsə alınandan sonra istintaq təcridxanasında işgəncələrə məruz qalıblar. Bir müddət sonra isə onların qohum-əqrəbası hər şeylərini sataraq tələb olunan pul vəsaitini Mövlam Şıxəliyevə və onun dəstəsinə çatdırıb. Misal üçün, Vüsal Ələkbərov apardığı iş üzrə sabiq iqtisadi inkişaf naziri vəzifəsində işləyən Heydər Babayevin qohumu və yaxın adamı olan inhisarçılıq şöbəsinin əməkdaşlarını tutaraq bir müddət təcridxanada saxlayıb sonradan 1 milyon dollar alaraq sərbəst buraxmışdı. Yasin Məmmədov adlı şöbə rəisi Mövlam Şıxəliyevlə əlbir olaraq İbrahim adlı şəxsi şərləyərək 8 ay istintaq təcridxanasında saxlayıb, sonra 8 milyon dollar götürərək onu sərbəst buraxıblar. "Texnikabank" ASC-nin sədri Etibar, işçiləri Hüseyn Səfərov, Nizami Kazımov, Xəqani Əzimov, Hamil Rzayev, Vüqar Behbudov, Füzuli Əzimov incəsənət əşyalarının kontrabanda yoluyla ölkədən çıxarılmasında iştirak edən şəxslərin, Rauf Kərimov və yüzlərlə digərlərin pulunu məhz Mövlam Şıxəliyevin başçılığıyla alınıb. Hədə-qorxu, şantaj, dələduzluq yoluyla aldığı puldan nazirə külli miqdarda pul gətirdiyi üçün ona yüksək rütbə və "Sahil" metrostansiyasının üstündə tikilən binada 4 otaqlı mənzil verilib. Sonradan həmin binada 1 milyon 300 min manata oğlu və qızı üçün 2 mənzil alır".

### Xərac toplayanlara 5 otaqlı ev, toplamayanlara yataqxanada 1 otaqlı...

Qeyd edirlər ki, Eldar Mahmudov xərac toplayan dəstə üzvlərini bahalı hədiyyələr və ev verməklə mükafatlandırıb: "Eldar Mahmudov ona və digər dostları Nizaməddin, Təhsin Ağayev, Əli Şəfiyev, Fərhad Vahabov və digər əməkdaşlara şəhərin mərkəzində 4-5 otaqlı mənzillər verib. Halbuki, biz, MTN-nin sabiq əməkdaşları illərlə yataqxana və birotaqlı mənzillərdə məskunlaşmışıq. Bizə mənzil nədir, heç mükafat da verilmirdi".

MTN işçilərinə xaricə səfərə getməyə qadağa qoyulsa da, Mövlam Şıxəliyev ildə 8-10 dəfə müxtəlif ölkələrə səyahət edib, beş ulduzlu otellərdə qalırmış. "Çexiya və Türkiyədə o, villalar, mənzil və oyektlər əldə edib. Onun ölkəmizdə də obyektləri, mülk və mənzilləri var. Hər il oğlu üçün bir neçə bahalı maşınlar alır. Mövlan Şıxəliyev idarəyə rəhbərlik etdiyi dönəmlərdə yüzlərlə günahsız vətəndaşın həyatını məhv etsə də, azadlıqda gəzir. Biz DTX əməkdaşları öz adımızı qeyd edə bilmərik, Mövlam Şıxəliyevin əlləri uzundur. Lakin haqq-ədalətin bərqərar olmasına inanırıq".

### İntihar etmiş MTN-çinin qardaşı müstəntiqlə üzləşdirildi

MTN-də öz işini ləyaqətlə yerinə yetirən əməkdaşlara qarşı aqressiv münasibətin olması, belə əməkdaşların ayrı-seçkiliyə məruz qalmaları haqda məlumatlar var. Bildirlir ki, qanunsuz əmrlərin icrasından yayınan əməkdaşlar ən müxtəlif bəhanələrlə cəzalandırılıb, heç bir əsas olmadan töhmət verilib, işdən çıxarılıb, şərlənərək həbs olunub.

Belə münasibətlə üz-üzə qalaraq intihar yolunu seçmiş MTN əməkdaşlarından biri də polkovnik Malik Mustafayev olub. M.Mustafayev qardaşına görə təqiblərə məruz qalıb. Onun ölümündən sonra yaxınları ən müxtəlif instansiyalara müraciət etsələr də, şikayətlərinə baxan olmayıb. Eldar Mahmudov tutuduğu postdan çıxarılandan və "MTN işi" üzrə istintaq başlanandan sonra M.Mustafayevin ölüm işi üzrə də araşdırmalar başlayıb. Bir neçə gün əvvəl M.Mustafayevin qardaşı Mətləb Mustafayevlə MTN-in İstintaq Baş İdarəsinin mühüm işlər üzrə müstəntiqi olmuş Elşən Murtuzovla üzlədirilib.

Baş Prokurorluğun Ağır Cinayətlərə Dair işlər Üzrə İstintaq İdarəsində "MTN işi" üzrə aparılan istintaq çərçivəsində baş tutan üzləşdirmə haqda gununsesi.info-ya hüquq-mühafizə orqanlarından məlumat daxil olub. Məlumatda bildirilir ki, Elşən Murtuzov MTN rəhbərliyinin təhdidi və şantajı səbəbindən intihar edən bu qurumun polkovniki Malik Mustafayevin qardaşı, bu günlərdə həbsdən çıxan Mətləb Mustafayevlə üzləşdirilib. Sayt yazır ki, üzləşmə prosesində Mətləb Mustafayev Elşən Murtuzovu ifşa edib, onun qanunsuz əməllərini ortaya qoyub.

❑ E.MƏMMƏDƏLİYEV

# Təhlükəsizlik zabiti bəzi generalların həbsini anons etdi

## İlham İsmayıl generalları həbsə aparan ilginc səbəbləri açıqladı

**Türmədən kimsə sığortalanmayıb. Bu deyim illərdir ki, öz təsdiqini tapmaqdadır. Tutduğu vəzifəsindən, qohumluq əlaqələrindən, var-dövlətin aşıb-daşmasından asılı olmayaraq heç kim həbsdən sığortalanmayıb.**



Amma bəzi kateqoriyadan olan vəzifə sahibləri var ki, türmə qapıları onların üzünə digər vəzifə daşıyıcılarından daha gen açılmış kimi görünür. Azərbaycan türmələrində sıradan olmayan dustaqlar zümrəsinə tez-tez general poqonu daşıyan vəzifə sahibləri daxil olur. Ötən əsrin son 10 iliyində Azərbaycan türmələrinə generallar İsgəndər Həmidovun, Rəhim Qazıyevin, Vahid Musayevin və digərlərinin yolu "salınıb".

Bu gün Azərbaycan təcridxanasında 4 general var. Bunlar bir müddət əvvəl ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov; qurumun Monitorinq Mərkəzinin rəisi, general-mayor Teymur Quliyev; Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev və Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanovdur. MTN-in daha bir generalı - Əməliyyat-Texniki İdarəsinin sabiq rəisi, general-mayor Natəvan Mürvətova hazırda ev dustaqlığındadır.

Generalları həbsə aparan, onları bir günün içində yüksək postdan salıb əli zəncirlənmiş adama çevirən hansı amildir? **Təhlükəsizlik orqanın istefada olan polkovnik-leytenantı İlham İsmayıl** deyir ki, generalların həbsə aparan situasiya hər dəfə eyni olmur: "1993-cü ildə generallar İsgəndər Həmidovu, Vahid Musayevin və yüksək rütbəli digər zabitləri həbs etmişdilər. Bu insanlar güc strukturlarında işləmişdilər. İnsanlar güc strukturlarında olanda müəyyən səlahiyyət sahibləri olurlar. Hakimiyyət dəyişəndə isə həmin səlahiyyət sahiblərində suç axtarışları başlanır və əhəmiyyətsiz olan ən kiçik səhvlər şişirdilib həbs üçün əsas yaradılır. O dövrdəki həbslər hakimiyyət dəyişikliyindən sonra baş vermişdi. İndiki həbslər isə belə dəyişikliklərdən kənar baş verib. Bu gün Azərbaycanda general sarıdan bolluqdur. Balaca bir ölkə olmağımıza baxmayaraq xeyli general var və onlardan bəzilərinin çox ciddi səhvlərə, cinayətlərə yol verilməsi general bolluğunda təəccüblü olmamalıdır".

**İ.İsmayıla görə, son həbslər hakimiyyət daxilində baş vermiş hadisələrin kəskin fazasında gerçəkləşib:** "Bütöv bir güc strukturunun səlahiyyətliləri, generalları ən müxtəlif cinayətlərdə günahlandırılıb həbs olundular. Bu gün həmin generallara cinayətkar deyə bilmirik. Ona görə ki, barələrində məhkəmə hökmü yoxdur. Əgər illər öncə generalları hakimiyyət dəyişikliyindən sonra həbs etmişdilərsə, sonuncu general həbsləri isə hakimiyyətdaxili gərginliyin nəticəsidir, hakimiyyətin içindən gələn prosesdir".

**İ.İsmayıl vurğuladı ki, yaxın perspektivdə Azərbaycan həbsxanalarda generalların sayı artacaq:** "Yaxın 10 ildə general həbslərin şahidi olacağıq. Azərbaycan güc strukturlarında ciddi bir yoxlama, təhqiqat aparılsa, səlahiyyət sahibi olan generalların həbsi labüddür. İstisna etmirəm ki, yaxın 10 ildə həbsdəki generalların sayı artacaq".

**Ekspert güc strukturlarında yüksək vəzifə tutan generalların qoluzəncirli adama çevirilməsinin səbəbini belə izah elədi:** "Generallar bir qayda olaraq səlahiyyət sahibidirlər. Ona görə də əməllərində cinayət tərkibi çox asanlıqla müəyyən olunur. Leytenant, kapitan, mayorun səlahiyyəti o qədər də böyük deyil və ona görə də tutulanda diqqəti cəlb etmir. Ölkə daxilində miqyası bu qədər böyük cinayətlərin törədilməsi, illərlə cəzadan kənar qala bilmələri kiçik rütbəlilərin səlahiyyət sərhədlərini aşan məsələ idi. Məhz belə əməlləri geniş səlahiyyət sahibi olan generallardan gözləmək olardı".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016

# Poeziyamızda feodal motivlər



Zamin HACI
zaminhaci@gmail.com

**Hər bir xalqın sənətçiləri, şairləri, yazıçıları onun öndə gedənləri olmalıdır, avanqardı olmalıdır, lap elə pafoslu desək, xalqı dartıb arxasınca aparmalıdır, ta xalqın ardıyca sürünməməlidir. Örnək üçün, Mirzə Fətəli Axundov 200 ildir azərbaycanlıları Avropaya, sivil dəyərlərə, azadlığa doğru dartan nəhəng bir lokomotivdir. Heç gücdən düşmür, zülm çəkir, yorulur, nəfəsi kəsilir, ancaq dayanmır. Biz bu gün Suriyadan, İrandan, lap elə qabaqda gedən saydığımız Türkiyədən fərqli dəyərlərə tapınmağımız üçün Mirzə Fətəliyə minnətdar olmalıyıq. O cümlədən, Həsən bəy Zərdabinin qəbrinin başına gündə yetmiş yeddi dəfə fırlanmalıyıq. Mirzə Cəlilin "Molla Nəsrəddin" jurnalını öpüb gözümüzün üstünə qoymalı, Üzeyir Hacıbəylinin heykəlinə qiblə kimi baxmalıyıq.**

Sözümün mənası var. Bu yaxında Bakı şəhərində bir azyaşlı qızı anası boğub öldürdü. Sən demə, qızı zorlayıblar, ana da bu "töhmətə" dözməyibdir. İlkin açıqlama belə idi. Ancaq sonra prokurorluq bunu malaladı (zorlayan şəxsi tapmağın dərdindən, ya başqa çirkli haqq-hesab üzündən?), dedilər ana ilə qızın mübahisəsi başqa şeyə görə olubdur. Hər halda, cinayətin motivi havadan götürülməmişdi, əgər prokurorluq haqlı idisə, ana bunu biclik üçün uydurmuşdu, cəmiyyətin reaksiyasını bilirdi. Axı bizdə doğrudan da zorlanan insana, qurbana münasibət bəlkə zorlayana münasibətdən də pisdir. "Dana göz eləməsə, buğa atılmaz", "Günah çox vaxt öləndədir" - bunlar bizim "ata sözlərimizdir".

Nəhayət, gəlirəm bu işdəki mədəniyyət motivinə. Məncə, o ananın qızını öldürməsində... görkəmli şairimiz Ramiz Rövşən də mənəvi məsuliyyət daşıyırdı. Ramiz bəyin "Vətən" adlı şeiri var, hardasa 2011-ci ildə yazıb. Mən bu şeirə görə bir dəfə dostlarla möhkəm mübahisə eləmişəm, şairin tərəfini tutmuşam, ancaq indi publik olaraq səhvimi etiraf edirəm. Bu şeirdə çox mənfur misralar var, gəlin onları oxuyaq:

"Səni sevmək çətindir, Vətən
Nə gündəsən ki,
Təpədən dırnağacan ...
günah içindəsən ki.
Bilirsən səni sevmək
bu saat nəyə bənzər?
Zorlanmış bir qızı sevməyə bənzər.
O sevgidən için-için
gizlicə yanar adam.
Amma açıb deməyə
qorxar, utanar adam".

Elə bu şeri çap olunan dövrdəki mübahisəmizdə mən dostlara isbat eləməyə çalışırdım ki, şair burda zorlanmış qızın timsalında vətənə pis baxmağa çağırmır, sadəcə, bunun necə böyük, çətin sevgi olduğunu aşılayır-zad... Çox axmaq dəstək verdiyimi bir daha etiraf edirəm. Bu misralarda elə birbaşa zorlanma qurbanları aşağılanır. Onları açıq sevməyin böyük cəsarət olması dolayısı ilə fırladır, cəmiyyətin beyninə yeridilir. Belə "ədəbiyyatla" böyüyən, tərbiyə edilən, ədəb öyrədilən millətin axırı yaxşı olmaz. Zorlanmış qızı sevmək çətindirsə, öldürmək asan olacaq - şairin köməyi ilə yaradılan qəddar dialektik məntiq belə deyir. Ramiz Rövşən mənim çox sevdiyim şairdir, ancaq bu şeirin ayıb olduğunu yazmağı özümə borc bilirəm. Orda hələ başqa primitiv, kobud seksual xarakterli misralar da var ("Neftlə pozuldu bəkarətin, Borular keçdi səndən"), ancaq mövzum o şeiri təhlil eləmək deyil. Şairlərimizi diqqətli olmağa çağırıram.

Ta söhbət düşüb, gənc və istedadlı şairimiz Aqşinin el arasında məşhur olan bir şeirində də feodal-patriarxal, hətta mağara adamı ruhu olduğunu yazmalıyam. Şeirin adı nəsə yağış və bağışlamaq temasındadır, müəllif üzrlü saysın, tapa bilmədim. İnsafən yaxşı şeirdir, ancaq o şeirdə bir yerdə Aqşin yazır:

"Çox miskin mənzərədir,
Ev yığışdıran kişi"

Çağdaş dünyada hansı şairin belə misra yazacağını təsəvvür edirsiniz? Ancaq müsəlman Şərqində kişi şair belə düşünə bilər. Şair qadınından ayrılmağının ağırlığını bu cür əcaib formada təsvir edir, ciddi şəkildə gender ayrı-seçkiliyi salır. Kişinin yaşadığı evi yığışdırması niyə miskin mənzərə olur ki? Yaxşı, yığışdırma, zibilin içində kişi kimi eşələn. Miskinlik kişi və qadını bu cür ayırmaqdır, hətta poetik qılafa soxsan belə iyrənc görünür. Qəribədir ki, bu misraları yazan adam özünü həmişə müsəlman Şərqini bəyənməyən kimi göstərir. Bəs bu nə beyindir? Axı müsəlman Şərqində elə qadın ev yığışdırmağa baxır, kişi də ova çıxır (guya).

**İndi söz əlaqədar təşkilatlarındır.**

# Bölgənin ən qanlı münaqişə ocağına dair mühüm gəlişmə

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan gələn həftə İrana gedəcək. "Fars" agentliyinin yaydığı xəbərə görə, məqsəd Suriyadakı terrorçu qruplaşmalara qarşı Rusiya-Türkiyə-İran əməkdaşlıq formatının yaradılmasını müzakirə etməkdir. İnterfaks isə "əl-Hayat" ərəb qəzetinə istinadın yazır ki, səfər Suriyaya dair Ankara, Tehran və Moskva arasında koalisiya formalaşdırılmasının başlanğıcı ola bilər.**




## Ərdoğanın kritik İran səfəri: Qarabağ üçün daha bir koalisiya yaranır

Ankara-Tehran-Moskva formatında Suriya böhranın həlli böyük bir bölgədə digər potensial müharibə ocaqlarının da söndürülməsinə yol açardı; Azərbaycanın daxil olduğu region taleyüklü mərhələ astanasında...

Yada salaq ki, ötən həftə İranın xarici işlər naziri Cavad Zərif Türkiyəyə səfər edib. Səfər zamanı nazir bəyan etmişdi ki, İran, Rusiya və Türkiyə əməkdaşlıq etməli olan regional oyunçulardır. İran XİN başçısının müavini Hoseyn Ənsari isə ardınca bildirmişdi ki, Tehran və Ankara regional problemlərlə bağlı danışıqları davam etdirmək barədə razılığa gəliblər. Ənsari bu məsələlərin müzakirəsi üçün tezliklə Türkiyəyə gedəcəyini də öz sözlərinə əlavə eləmişdi.

Öz növbəsində Rusiya prezidenti Vladimir Putinin Yaxın Şərq və Afrika ölkələri üzrə xüsusi nümayəndəsi Mixail Boqdanov bəyan eləmişdi ki, Rusiya, İran və Türkiyə üçtərəfli formatda Suriyadakı situasiya ilə bağlı danışıqlar apara bilər. "Rusiya və İran həm Suriya, həm də ümumən Yaxın Şərqlə bağlı ikitərəfli və fəal məsləhətləşmələr aparmaq üçün razılığa gəlib. Türkiyəli tərəfdaşlarla bu məsləhətləşmələr XİN-lər səviyyəsində üçtərəfli görüş formatına da çevrilə bilər. Bu - tamamilə mümkündür" - rusiyalı diplomat bildirmişdi. Onun sözlərinə görə, İran xarici işlər naziri və onun müavini ilə görüşdə tərəflər Suriyaya dair informasiya mübadiləsi edib. Problem habelə Moskva və Tehran rəsmilərinin Türkiyə rəhbərliyi ilə təmasları kontekstində müzakirə edilib.

***

Xatırladaq ki, İran, Rusiya və Azərbaycan prezidentlərinin Bakı sammitində də Suriya mövzusu diqqət mərkəzində olub. Prezident Ərdoğanın Peterburq səfərindən sonra isə Türkiyə baş naziri Binəli Yıldırım Suriya probleminin həllinə çox yaxın olduqlarını bildirmiş, "Biz bölgədə marağı olan qüvvələrlə birlikdə problemi həll edəcəyik" deyərək, məsələnin həlli ilə bağlı Türkiyənin 3 bəndlik planını açıqlamışdı.

**Həmin bəndləri bir daha yada salaq:** "**1.** Suriyanın ərazi bütövlüyü qorunacaq. Başqa sözlə, bu ölkədə PYD-nin (terrorçu PKK-nın Suriyadakı qolu - red.) təsiri altında olacaq bir dövlətin qurulması müzakirə edilməyəcək;

**2.**Yeni mərhələdə məzhəbə, etnik və regional məsələlərdən birinin üstünlüyünə əsaslanan bir dövlət quruluşu olmayacaq. Məzhəb əsasında bir dövlət qurulmayacaqsa, deməli, Bəşər Əsəd də siyasi səhnədə uzun müddət qalmayacaq;

**3.** Məsələnin Türkiyə ilə bağlı ən əhəmiyyətli hissəsi isə suriyalı qaçqınların geri qayıtmasıdır. Böhran həll edilməyə başlayandan sonra Türkiyə də daxil olmaqla, bölgə ölkələrinə sığınan və qaçan suriyalı qaçqınlar müəyyən proqram əsasında geri dönəcək".

***

Göründüyü kimi, türk-rus barışından sonra Suriyaya dair prosesin intensivləşdiyi göz önündədir. Əgər Suriya böhranı ilə bağlı üç ölkə ortaq məxrəcə gəlib vahid həll mexanizmi tapsa, bu mexanizmi reallaşdıra bilsə, müharibə alovu söndürülsə, bu, təkcə həmin üç dövlət adına böyük uğur olmayacaq, udan bütövlükdə beynəlxalq birlik, qlobal sülh olacaq. Eyni zamanda İŞİD probleminin birdəfəlik qapadılması üçün unikal fürsət yaranacaq.

Suriya böhranının üç regional surpergücün ortaq səyləri ilə aradan qaldırılması həmçinin, regiondakı digər konflikt ocaqlarının söndürülməsinə ciddi töhfə verə bilər. Söhbət ilk növbədə Yaxın Şərq böhranı səbəbindən arxa planda qalmış Dağlıq Qarabağ məsələsinə bu presedentin təsirindən gedir. Bəllidir ki, hər üç ölkə xüsusən də Rusiya və Türkiyə həmsərhəd olaraq, Güney Qafqaza mühüm təsir rıçaqlarına malikdir - Moskva İrəvanla, Ankara isə Bakı ilə müttəfiq münasibətlərindədir, üstəlik, Tehranın işğalçı ölkəyə vazkeçilməz təzyiq rıçaqları mövcuddur.

Elə isə niyə də daha bir koalisiya Qarabağ məsələsi üçün yaranmasın? Təbii ki, Qərblə - ABŞ və Avropa Birliyi ilə sinxron hərəkət ediləcəyi təqdirdə Suriya ixtilafının ardınca daha bir təhlükəli münaqişə, potensial müharibə mənbəyi qapadıla bilər - yetər ki, buna region dövlətlərində, ələlxüsus da Rusiyada siyasi iradə olsun.

Heç şübhəsiz, Moskva Suriya məsələsində göstərdiyi qətiyyəti Qarabağ məsələsində də nümayiş etdirsə, o zaman ötən saylarımızın birində qeyd elədiyimiz kimi, Suriyadan sonra növbə Qarabağa çata bilər. Bu ehtimalı gücləndirən amillərdən biri də son vaxtlar İran-Rusiya-Azərbaycan formatının uğurla təşəkkül tapması, İran-Rusiya-Türkiyə, İran-Rusiya-Azərbaycan-Türkiyə formatlarına isə "yaşıl işıq" yandırılmasıdır...

**Belə görünür, Azərbaycan da daxil, böyük bir region taleyüklü, yeni bir mərhələnin astanasındadır.**

**❑ Analitik xidmət**



## Merkel: "Almaniyaya terroru müsəlman qaçqınlar gətirməyib"

**Yaxın Şərq və Afrikada müharibə və kasıblıqdan qaçan qaçqınlar Almaniyaya terrorizm gətirə bilməzlər. Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Almaniya kansleri Angela Merkel söyləyib. Onun sözlərinə görə, islam Almaniyanın bir parçasıdır: "Almaniyadan çoxları Suriyaya təlim almağa gedib. Artıq sayları 800-ü ötüb. Bu qrup bizi narahat edir. Almaniyaya terroru müsəlman qaçqınlar gətirməyiblər".**

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016

# Professor İlham Rəhimovun Qarabağ açıqlamasına dəstək gəldi

**Rusiya prezidenti Vladimir Putinin Bakı səfəri zamanı səsləndirdiyi Qarabağ bəyanatı Moskvanın bu münaqişəni hansı metodla həll etmək niyyətinə müəyyən qədər işıq salıb. Belə ki, Kreml sahibi "hər iki xalqın qalib" olmasına çalışdıqlarını bildirib ki, bu da illərdən bəri danışılan Dağlıq Qarabağın "müstəqilliyi"nin tanınmasının qarşılığında ətraf rayonların Azərbaycana qaytarılması deməkdir. Hətta bu günlərdə Qarabağ separatçıları da "təhlükəsizliyə təminat veriləcəyi halda" ətraf ərazilərin boşaldılmasını mümkün sayıblar.**



**Hüquq elmləri doktoru, professor İlham Rəhimov** isə sputnik.az-a son müsahibəsində təklif olunan həll modelini təhlükəli sayıb. Qeyd edək ki, bundan əvvəl də hörmətli professor ərazilərin 5+2 formatı ilə qaytarılması təklifini Azərbaycan üçün "tələ" adlandırmışdı. Rusiyanın hakimiyyət dairələrinə yaxın olan İ.Rəhimovun 7 rayonun azad olunmasının müzakirə predmetinə çevrilməsini təhlükəli sayması təbii ki, sadə məsələ deyil və ciddi arqumentlərə əsaslanır.

**Sitat:** "Yeddi rayon yox, məhz Dağlıq Qarabağ müzakirə predmeti olmalıdır. Çünki biz öz diqqətimizi, dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqətini bu ərazilərin azad edilməsinə cəmləşdirəndə Dağlıq Qarabağ məsələsində mövqeyimizi zəiflədirik. Hesab edirəm ki, Ermənistan bundan uğurla istifadə edir və diqqətimizi əsas müzakirə predmetindən yayındırır. Orda yaxşı bilirlər ki, işğal edilmiş rayonlar istənilən halda azad ediləcək, çünki bu işğal edilmiş ərazilər sovet dövründə DQMV-nin tərkibinə daxil deyildi. Onların məqsədi bu rayonlar yox, Dağlıq Qarabağdır.... Problemi yalnız ölkə prezidentinin dəfələrlə və qəti şəkildə dediyi prinsipial müddəa əsasında həll edilməlidir".

Professor İ.Rəhimovun müsahibəsindəki digər məqamlar da ciddi müzakirələrə səbəb olub. **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə bu mövzuda danışarkən xatırlatdı ki, azərbaycanlılar içərisində Rusiya prezidenti Vladimir Putini ən yaxşı tanıyan şəxs İlham Rəhimovdur: "Bu mənada İlham bəy Putinin daxili dünyasını hamımızdan yaxşı bilər. Mən də inanmaq istərdim ki, Putin Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirmək istəyər. Ancaq reallıq fərqlidir. Putinin İlham Rəhimov kimi dostu olmaqla yanaşı, azərbaycanlıları qətl edən, Xocalı soyqrımını törədən Ermənistanın keçmiş prezidenti Robert Köçəryan kimi də dostu və yaxın silahdaşı var. Bir faktı xatırladım: Dmitri Medvedyev Rusiya prezidenti kimi Azərbaycan və Ermənistan prezidentləri ilə fikir mübadiləsi aparanda o vaxtın baş naziri Putin heç bir rəsmi vəzifəsi olmayan Köçəryanla Moskvada gizli görüşlər keçirirdi. Bu açıq-aşkar Medvedyevə təzyiq idi. Çünki Medvedyev Azərbaycan və Ermənistan prezidentləri ilə düz 10 görüşdə vasitəçi olmuşdu və hiss olunurdu ki, münaqişənin həllini sürətləndirməyə hazırdır. Ancaq digər başqa münaqişənin həllinə Dmitri Medvedyev bu qədər can yandırmırdı. Bununla belə, Medvedyev arxasında Putinin və Ermənistanla bağlı olan Rusiyanın hərbi-sənaye kompleksini idarə edənlərin nəfəsini duyurdu".



**Elxan Şahinoğlu:**
"Biz "ilkin mərhələdə 5 rayon azad olunmalıdır" dedikdə Şuşa, Laçın və Kəlbəcəri arxa plana keçirməməliyik"



**Elçin Mirzəbəyli:**
"Həm Dağlıq Qarabağ, həm də yeddi rayon birlikdə müzakirə predmeti olmalıdır"

**Politoloqa görə, bəlkə də Medvedyev münaqişənin həllini istəyir, ancaq Kreml sahibi müttəfiqi Ermənistanın bu həldən məğlub çıxmasının əleyhinədir:** "Ermənistanın danışıqlardan məğlub çıxmaması isə referendum məsələsinin separatçıların xeyrinə həll olunması deməkdir. Belə olan halda məğlub Azərbaycan olur. Putin Bakıdan tam təminat almaq istəyir ki, Azərbaycan bütövlüklə Rusiyanın regional maraqlarını nəzərə alacaq, Avrasiya İqtisadi Birliyinə qoşulacaq, NATO-dan uzaq duracaq, Xəzərdə Qərbin bu və digər şəkildə hərbi varlığına imkan verməyəcək, Rusiyanın maraqları əleyhinə Xəzərin dibi ilə Türkmənistana boru xətti çəkməyəcək. Ancaq Azərbaycan hakimiyyəti Putinin istəyi ilə müstəqil hərəkətlərimizi daraldacaq bu ağır şərtləri yerinə yetirsə belə, Putinin onfliktin ədalətli həllini sürətləndirəcəyini düşünmürəm".

**5 rayon ətrafında gedən söhbətlərə gəldikdə, E.Şahinoğlu bildirdi ki, bu məsələdə İlham Rəhimovla tam razıdır**: "Biz "ilkin mərhələdə 5 rayon azad olunmalıdır" dedikdə Şuşa, Laçın və Kəlbəcəri arxa plana keçirməməliyik. SSRİ dövründə Dağlıq Qarabağ necə və əhalinin hansı nisbətində mövcud olubsa bu vəziyyət bərpa olunmalıdır. Sadəcə, bölgənin statusu bir qədər arta bilər və bu statusun müəyyənləşməsində Dağlıq Qarabağa qayıdan azərbaycanlılar da əhəmiyyətli rol oynamalıdırlar".

"Hörmətli professor İlham Rəhimovun müsahibəsində diqqəti cəlb edən məqamların sayı yetərincədir. Bu səbəbdən onun dilə gətirdiyi fikirlərə ayrı-ayrılıqda münasibət bildirəcəyəm". Bu fikirləri isə **politoloq Elçin Mirzəbəyli** "Yeni Müsavat"a açıqlamasında bildirdi. Siyasi təhlilçinin fikrincə, həm Dağlıq Qarabağ, həm də yeddi rayon birlikdə müzakirə predmeti olmalıdır: "Çünki müzakirə predmeti yalnız Dağlıq Qarabağ olanda, o zaman problemin tamamilə etnik münaqişə kimi təqdim olunmasına, işğal amilinin isə arxa plana keçməsinə zəmin yaranır. Yəni burada işğal yox, separatizm faktoru önə çıxır. Rusiyanın separatçı rejimlərlə bağlı mövqeyini və atdığı addımları nəzərə alsaq, o zaman bu yanaşmanın nə qədər təhlükəli olduğunu müəyyənləşdirə bilərik".

**E.Mirzəbəyli hesab etmir ki, Azərbaycanın siyasi rəhbərliyi ölkə vətəndaşlarının, dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqətini yalnız yeddi rayonun azad edilməsinə cəmləşdirib:** "Dağlıq Qarabağ ayrı, digər yeddi rayon isə ayrı tənzimlənmə predmeti kimi təqdim olunmur. Mən hörmətli İlham Rəhimovdan fərqli olaraq, 5+2, sonra "status" formulunun indiki halda bizim üçün nə qədər məqbul olub-olmayacağını birmənalı şəkildə qiymətləndirə bilmərəm. Amma onu deyə bilərəm ki, bu formul problemin mərhələli həllini nəzərdə tutur, Ermənistan isə mərhələli həll planının əleyhinədir. Yəni istəyir ki, status müəyyənləşdirilsin, sonra digər məsələlər həllini tapsın. Bu məsələyə detallarla yanaşmaq lazımdır".

**E.Mirzəbəyli ortada çoxlu sualların olduğunu vurğuladı**: "Aydın olmalıdır ki, 5+2 formulundan sonra proses necə davam edəcək? Tənzimlənmə prosesi sülh sazişində necə öz əksini tapacaq? Prosesə hansı səviyyədə beynəlxalq təminat veriləcək və bu təminat gerçəkləşməyəcəyi halda Azərbaycanın atacağı, yaxud ata biləcəyi addımlar hansı formada yekun sülh sazişində necə əks olunacaq? Tənzimləmə mexanizmlərinin tətbiqi üçün hansı addımların atılması, önləyici amillər, təhlükəsizlik məsələləri nələrdən ibarət olacaq? Suallar çoxdur. Putin bəyan etmişdi ki, "Kompromisin əldə edilməsi ərazi bütövlüyü və xalqların təyini-müqəddərat hüququ prinsipləri arasında optimal tarazlığın tapılmasını nəzərdə tutur". Bu iki prinsip arasındakı optimal tarazlıq isə Dağlıq Qarabağın Azərbaycanın tərkibində yüksək status əldə etməsi deməkdir. Əks halda, hər hansı bir tarazlıqdan söhbət gedə bilməz. Azərbaycan prezidenti dəfələrlə bəyan edib ki, dövlətimiz işğal faktoru aradan qalxdıqdan sonra bölgənin və orada yaşayan insanların təhlükəsizliyinə tam təminat verir və nəinki etnik ermənilər, hətta Ermənistan da Azərbaycanın regionda həyata keçirdiyi layihələrdən yararlana bilərlər. Azərbaycanın tərkibində yüksək muxtariyyət isə artıq bütün hüquq və azadlıqlara təminat verilməsi anlamına gəlir. Bu, 5+2 kimi olmasa da, 100 % 2+2 kimi aydın bir yanaşmadır".

❑ E.PAŞASOY



# Rusiyanın Dövlət Dumasının erməni əsilli deputatı: "ABŞ Ermənistanı Rusiyadan qoparmaq istəyir"

**Rusiya Dövlət Dumasının erməni əsilli deputatı Semyon Baqdasarov Rusiyanın "Sputnik" saytına maraqlı açıqlamalar verib. Qatı Rusiyapərəst siyasətçi olaraq tanınan Baqdasarov Rusiyanın mövqelərinin regionda zəiflədiyini düşünür:**

"Mənim şəxsi mövqeyim ondan ibarətdir ki, Rusiya postsovet məkanın hamısını özünün həyati maraqlar zonası elan etməli və ABŞ, Çin və ya Türkiyənin bölgəyə girməsinə sərt qarşılıq verməlidir". Onun fikrincə, Rusiya bunun üçün hər bir ölkə ilə fərdi siyasət həyata keçirməlidir: "Rusiya faktiki olaraq Mərkəzi Asiyanı itirib. Çin artıq Tacikistanı udmaq üzrədir. Özbəkistan da onların yolu ilə gedir. Rusiyanın bölgədə əlində bircə Qırğızıstan qalıb.

Baqdasarov Rusiyanın Qafqazdakı mövqeləri barədə də danışıb: "Gəlin obyektiv olaq. Gürcüstan artıq çoxdan Rusiyanın təsir sahəsindən çıxıb. Azərbaycan isə Rusiya ilə isti münasibətlərə rəğmən Türkiyəyə meyllənir".

"...Ermənistan isə Rusiyanın sərhəd qoşunlarının qoruduğu yeganə ölkədir. Rusiyanın orada üç sərhəd dəstəsi və İrəvanın "Zvartnots" hava limanında sərhəd komendantlığı mövcuddur. Lakin biz bir məsələdə uduzuruq. Amerikalılar sadə ermənilər arasında Rusiyadan daha çox işləyir. Rusiya isə Ermənistanda rus məktəblərini dəstəkləmir, gənclərlə çalışmır və mətbuatla ünsiyyəti zəif qurur.

ABŞ isə Ermənistana daha çox diqqət göstərir. ABŞ-ın Ermənistandakı səfirliyi həm ərazisinə, həm də sayına görə ikinci sırada gedir. Əgər amerikalılar Ermənistanda müvəffəqiyyət qazansalar Rusiyanın bölgədə 200 illik maraqlarına ağır zərbə endirmiş olacaq.

Yadımıza salaq ki, prezident seçkilərində ABŞ-ın keçmiş vətəndaşı 38 faiz səs toplamışdı. Əgər növbəti parlament seçkilərində müxalifət qalib gəlsə Rusiya Ermənistanda bütün təsir və nüfuzunu itirəcək... Əgər Rusiya Cənubi Qafqazda gerçək müttəfiqlərinin kim olduğunu müəyyən etməsə daha böyük itkilərlə üzləşə bilər..."

Baqdsarov müxbirin onun erməni əsilli olmasını xatırlatması üzərinə atasının Dağlıq Qarabağ, anasının isə Zəngəzur ermənisi olduğunu , özünün isə Orta Asiyada doğulduğunu bildirib: "Özümü sovet imperiyasının adamı hesab edirəm. Ona görə ki, mənim üçün insanların milliyyəti deyil, imperiya olaraq dövlət vacibdir".

Buna rəğmən, Baqdasarov erməni xislətini də gizlətməyib: "Bəzi dostlarımız Rusiyada yaşayıb, ondan bəhrələnirlər, lakin bizim Su-24 təyyarəmizi vuran başqa dövləti sevirlər".

Qeyd edək ki, Rusiya və Ermənistanda qatı ruspərəst mövqeyi ilə tanınan tək siyasətçi deyil. Rusiyada bu cür ermənilərin sayı kifayət qədərdir. Erməni mətbuatının yazdığına görə, Rusiyada yaşayan bir çox ermənilər, hətta Ermənistanda yaşayanların bir hissəsi hələ də Ermənistanı Rusiyanın ayrılmaz tərkib hissəsi hesab edirlər.

Onlardan biri də Sergey Kurginyandır. Bu həmin Kurginyandır ki, 2013-cü ilin mayında İrəvanda səfərdə olarkən Ermənistana müstəqilliyin lazım olmadığını söyləmişdi: "Ermənistan dövləti əhalisinin rifahını təmin edə bilmirsə o zaman müstəqillik onun nəyinə gərəkdi. Ermənistan Qarabağın özünü Rusiyanın köməyi ilə tutub saxlayır. Nəinki Qarabağ (işğal altında olan qondarma qurum - red), hətta Ermənistan dövlətinin mövcudluğu belə Rusiyadan asılıdır".

Həmin vaxt Kurginyanın bu sözləri Ermənistanda böyük hay-küy doğurmuşdu. Hətta iqtidara yaxın KİV-lər belə onu topa tutmuşdu. Erməni politoloqları rəsmi İrəvanın hətta Rusiya ilə bu cür yaxınlaşmadan istifadə edə bilmədiyini düşünür. Məsələn, Ermənistan Politoloqlar İttifaqının sədri Amayak Ovannisyan qeyd edir ki, Ermənistanın Rusiya ilə Türkiyə arasında pisləşən münasibətlərin bir daha düzəlməsinə yol verməməsi üçün 8 ay vaxtı olub.

"Lakin Əliyev Rusiya -Türkiyə münasibətlərinin düzəlməsindən ötrü əlindən gələni etdi. O başa düşdü ki, Qarabağ məsələsinin öz xeyrinə həll olunması məhz bundan asılıdır", - deyə politoloq bildirib.

**Politoloqun sözlərinə görə, Ermənistan diplomatiyası Rusiya Federasiyası və Qərb arasında körpü rolu oynamaq kimi səfeh və mənasız bəyanatlar verərkən Azərbaycan səssizcə öz işini gördü.**

❑ Vaqif HÜSEYN

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016



# "Rövşən Lənkəranski"ni kim və niyə öldürdü - şok təfərrüat

## Azərbaycanlı "qanuni oğru" İstanbulda başından güllələndi; "Lənkəranski"nin düşmənləri çox olduğundan qətlin sifarişçisinin kimliyi müəmmalıdır, amma...; avtoritet bu gün doğulduğu torpaqda dəfn olunacaq

**Azərbaycanlı "qanuni oğru" Rövşən Canıyev("Rövşən Lənkəranski") avqustun 18-də Türkiyədə öldürülüb. "Rövşən Lənkəranski" kimi məşhurlaşan R.Canıyev İstanbulun Beşiktaş bölgəsində qaldığı hoteldən çıxdıqdan sonra onun olduğu avtomobil pusquya düşüb. Hoteldən çıxan "Range Rover" markalı, Az 90 ND 011 dövlət nömrə nişanlı maşın 10 metr irəlidə pusqu quranların silahlı hücumuna məruz qalıb. Çarpaz atəşə tutulan avtomobil dəlik-deşik edilib. Avtomobilin içərisində olan "Lənkəranski" və adı açıqlanmayan sürücüsü ağır yaralı olaraq təcili yardımla xəstəxanaya aparılıb.**

### "Lənkəranski" üçün pusqu

Hadisədən sonra bölgəyə çox sayda polis cəlb edilib. Zirehli bir polis maşını ətrafda təhlükəsizlik tədbirləri alıb. Sonradan bəlli olub ki, killerlərin güllələbaran etdiyi "Range Rover"də Rövşən Canıyevlə birlikdə 3 nəfər olub. Killerlərin atəş açmasından dərhal sonra avtomobildən onlara cavab atəşi açılıb. Lakin "Range Rover"in sürücüsü və "Lənkəranski" çoxsaylı güllə yaraları alıb. Aldığı yaralardan sürücü yerində keçinib, "qanuni oğru" isə başından aldığı güllə yarasından xəstəxanada ölüb. Polisdəki mənbələrin bildirdiyinə görə, R.Canıyevə 5 güllə dəyib, güllələrdən biri onun gözündən keçərək beynini dağıdıb və başının arxa tərəfindən çıxıb.

İstanbul Əmniyətinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Şöbəsi və Asayiş Şöbə Müdirliyi hadisə ilə bağlı araşdırma aparır. Hadisə yerində aparılan araşdırmada səsboğucu ilə təchiz edilmiş 1 ədəd "Uzi" tapança-pulemyot, 1 ədəd "Glock" markalı tapança, çoxlu sayda boş giliz tapılıb. Bu silahların "Range Rover"dəki şəxslərə aid olduğu bildirilir.

Türkiyə mediası "Rövşən Lənkəranski" azərbaycanlı iş adamı Rövşən Əliyev kimi təqdim olunmaqla əvvəlcə onun həlak olması, daha sonra isə "Şişli Etfal" Xəstəxanasına aparılması və həkim nəzarətinə alınması haqda xəbərlər yayıb.

### "Qanuni oğru"nəşi üçün xüsusi təyyarə

Ümumiyyətlə, hadisədən sonra R.Canıyevin gah dünyasını dəyişməsi, gah da sağ qalması haqda xəbərlər gün ərzində bir-birini əvəzləyib. Nəhayət, Azərbaycanın İstanbuldakı Baş Konsulluğun məsələyə aydınlıq gətirib. Konsulluqdan "Yeni Müsavat"a bildirilib ki, "Rövşən Lənkəranski"nin yerləşdirilidiyi xəstəxanadan zəng gəlib. Bildirilib ki, ağır yaralı olan "qanuni oğru" həyatını itirib. Cənazə xəstəxanadan konsulluğa göndərilib, orada sənədləşdirmə işləri aparılıb. Prosedurlara görə xarici ölkədə vəfat edən şəxsin meyiti onun ölkəsinin konsulluğuna təhvil verilir, sonra da müvafiq sənədləşdirmə işləri aparılaraq cənazə mərhumun yaxınlarına təhvil verilir. Bundan sonra nəşi hava limanına aparılır, orada gömrükdən və sərhəd xidmətindən keçməklə ölkəsinə yola salınır.

Redaksiyamıza daxil olan məlumata görə, olaydan 2 gün əvvəl "Lənkəranski"nin ailə üzvləri İstanbula gediblər. Orada həftəsonu birgə istirahətə yollanmağı planlaşdırıblar. Qanlı olay bu planları pozub.

İstanbuldakı mənbələrdən "Yeni Müsavat"a verilən məlumata görə, "Rövşən Lənkəranski"nin cənazəsi məhkəmə-tibbi ekspertizasına təhvil verilib. Müvafiq müayinələrdən sonra meyitin avqustun 19-da yaxınlarına təhvil veriləcəyi gözlənilir. Cənazənin xüsusi təyyarə ilə Lənkəran Hava Limanına gətiriləcəyi deyilir.

"Report" agentliyi isə "Lənkəranski"nin qohumlarına istinadən məlumat yayıb ki, avtoritetin qardaşı Namiq Canıyev Türkiyədədir. O, qardaşının cənazəsinin Azərbaycana gətirilməsi ilə bağlı sənədləşmə işləri ilə məşğul olub. Eyni zamanda Lənkəran şəhərində də hüzr məclisinə hazırlıq işləri başlayıb. Yas məclisi Canıyevlərin "Kiçik Bazar" məhəlləsində yerləşən evlərində keçiriləcək. "Lənkəranski" həmin məhəllənin Sardaxlı qəbiristanlığında torpağa tapşırılacaq. Qeyd edək ki, "Yeni Müsavat"ın əməkdaşları artıq Lənkərandadırlar və bu qətllə, eləcə də dəfnlə bağlı geniş yazını sabahkı sayımızda oxuya biləcəksiniz.

### Niyə Canıyev yox, Əliyev?

Qanlı olaydan sonra Türkiyə mətbuatında "Rövşən Lənkəranski"nin soyadının Əliyev göstərilməsinə gəlincə, bildirilir ki, ata soyadı Canıyev olan Rövşən bir müddət öncə ana soyadını götürüb. Xəbəri "Lənkəranski"nin qohumu, Milli Məclisin deputatı Fəzail Ağamalı da təsdiqləyib. Məlum olduğu kimi, Fəzail Ağamalının qardaşı qızı, Rövşən Lənkəraniskinin qardaşının həyat yoldaşıdır.











### Kriminal əfsanə...

Rövşən Canıyev 27 yanvar 1975-ci ildə Lənkəran şəhərində milis ailəsində anadan olub. Azərbaycan vətəndaşı, orta təhsilli, ailəlidir. İlk dəfə 1996-ci ildə 2 il müddətində həbs edilib. Rövşən Caniyev atasının qatilini hakimin qabağında elə məhkəmə zalındaca güllələyib. Səbayel Rayon Məhkəməsinin 4 mart 1997-ci il tarixli qərarı ilə cəzadan şərti azad olunub. 2000-ci ilin iyulunda yenidən məsuliyyətə cəlb olunub. Qəsdən adam öldürməyə cəhd və qanunsuz olaraq odlu silah, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama maddəsi ilə ittiham olunub. Lakin məhkəmə onun barəsində psixi müalicəyə göndərilməsi barəsində qərar çıxarıb. 2001-ci ildə Sabunçu Rayon Məhkəməsinin qərarı ilə R.Caniyev cinayət məsuliyyətindən azad edilib.

Rövşən Caniyev kriminal aləmdə "Rövşən Lənkəranski" kimi tanınırdı. 2002-ci ildə Rövşən barəsində cinayət işi təzələnir. Lakin Rövşən istintaqdan qaçıb gizləndiyinə görə, onun barəsində 1 iyul 2002-ci ildə axtarış elan olunub. 2009-cu ilin dekabrın 3-də Ukrayna Respublikasında həbs olunub, dekabrın 13-də Azərbaycana ekstradisiya olunub. Dövlət ittihamçısı R.Caniyevin 12 il müddətinə azadlıqdan məhrum edilməsini istəsə də, məhkəmə ona 2 il 10 ay 19 gün həbs cəzası kəsib. Son vaxtlar o, Türkiyədə, gah da Ukraynada yaşayır, biznes fəaliyyəti ilə məşğul olurdu.

Azərbaycan Daxil İşlər Nazirliyi isə "Rövşən Lənkəranski"nin Türkiyədə öldürülməsini şərh etmir. DİN-in mətbuat xidmətinin rəhbəri Ehsan Zahidov virtualaz.org-a açıqlamasında deyib ki, əgər hadisə Türkiyədə baş veribsə, bu ölkənin hüquq-mühafizə orqanları araşdırmalıdır. DİN rəsmisi Azərbaycanda heç bir "vor zakon"un olmadığını da əlavə edib: "Biz insanlara ölkə vətəndaşı kimi baxırıq. Bizim üçün ancaq qanuna əməl edən və etməyən vətəndaş anlayışı var. İkincilərlə qətiyyətli mübarizə aparırıq. Heç bir "vor zakon" tanımamışıq və tanımırıq, Azərbaycanda belələrinin kökü hələ 90-cı illərin əvvəllərindən kəsilib. Vətəndaş Rövşən Canıyevin öldürülməsinə gəldikdə isə əgər bu hadisə Türkiyədə baş veribsə qoy onlar özləri araşdırsınlar". Rövşən Canıyevin dəfnində "vor zakon"ların mümkün iştirakına gəldiksə isə Ehsan Zahidov bu variantı istisna edib. Bildirib ki, bütün qanunazidd hərəkətlərin qarşısı alınacaq. "Azərbaycanın sərhədləri etibarlı şəkildə qorunur və ölkəyə gələn şəxslərin kimlikləri, onların məqsədləri dəqiqləşdirilir" deyə, DİN rəsmisi bildirib.

### Qətli kim və ya kimlər törədə bilər?

"Lənkəranski"nin qətlinin sifarişçiləri barədə dəqiq məlumat yoxdur. Məlumdur ki, avtoritet uzun illərdir ki, bir sıra kriminal qruplaşmalarla konfliktdə idi. Bu sırada ilk yada 2013-cü ilin yanvar ayında qətlə yetirilən "Ded Xasan" ləqəbli Aslan Usoyanın klanı düşür. "Ded Xasan" klanı qətli "Lənkəranski"nin sifarişi ilə törədildiyini iddia edirdi və hətta onun "başı"na 5 milyon dollar mükafat da vəd edilmişdi. "Ded Xasan"ın intiqamının alınacağı ilə bağlı söz-söhbətlər daha bir nüfuzlu kriminal Zaxari Kalaşov ("Şakro Molodoy") 2014-cü ilin oktyabrında İspaniya həbsxanasından azadlığa buraxıldıqdan sonra yenidən dövriyyəyə buraxılmışdı. Amma "Şakro" "Lənkəranski" ilə açıq savaşa girmədi. Əksinə, kriminallar arasında əvvəlki nüfuz müharibələri də xeyli səngidi. Yalnız son aylar klanlar arasında Rusiyanın regionlarında yenidən nüfuz savaşının başladığı xəbərlər artmağa başlamışdı ki, bu sırada "Lənkəranski" nin adamlarının da adı hallanırdı. "Ded Xasan"ın qətlindən sonra klanın itirilmiş mövqelərini qaytarmağa çalışan "Şakro" ötən ay gözlənilmədən həbs edildi. Bu dəfə də yenə diqqətlər "Lənkəranski" cəbhəsinə yönəldi. Açıq deyilməsə də, bu həbsdə "Lənkəranski"nin maraqlı ola biləcəyi barədə iddialar vardı.

Qeyd edək ki, "Lənkəranski" azərbaycanlı avtoritetlərlə də, o cümlədən bir neçə ay əvvəl "qanuni oğru" adı alındığı üçün özünü Kiyevdə doğrayan Dadaşbala İbrahimov ("Lotu Dadaş"), 2013-cü ildə İstanbulda güllələnən Əlibala Həmidov ("Qoca Yasamallı"), 2014-cü ilin aprelində Odessada öldürülən "Vaxa" ləqəbli Baxış Əliyevlə, o cümlədən 18 ildir həbsdə olan Nadir Səlifovla da( "Lotu Quli") gərgin münasibətləri olduğu sirr deyil. Maraqlıdır ki, üç il əvvəl "Qoca Yasamallı" da İstanbulda məhz avqustun 18-də güllələnmişdi. Qətllə bağlı bildirilirdi ki, guya "Qoca" yanında olana son nəfəsində "Rövşən" deyibmiş...

Əlbəttə ki, bu cür sifarişli qətllərin arxasında kimin və ya kimlərin dayandığı heç vaxt rəsmi olaraq açıqlanmır, cinayət işi məhkəmədə çözülmür. "Lənkəranski"nin çoxsaylı düşmənləri vardı və qətlin konkret kimin sifarişi olduğunu yalnız məhdud bir çevrə bilir. İndi bu istiqamətdə də çoxsaylı versiyalar üzə çıxacaq.

"Lənkəranski"nin qətli kriminal aləmdə yeni hesablaşmalara da yol açacaq. Hikmət Muxtarov ("Hikmət Sabirabadlı") və Məmməd Hüseynov ("Masallı Mamed")dan sonra ən nüfuzlu azərbaycanlı "qanuni oğru" "Rövşən Lənkəranski" əfsanəsi də beləcə yarımçıq bitdi.

**Allah rəhmət eləsin.**

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ üçün status tələsinə düşməməyin tək yolu

## "5+2" formulu ilə bağlı xəbərdarlığından çıxan əsas nəticə; ərazilərimizi öz əlimizlə sortlara bölməyimiz düşmənə Dağlıq Qarabağın həqiqətən mübahisəli bölgə olduğunu və Azərbaycanın ondan vaz keçə biləcəyini isbatlamaq üçün gərəkdir…

**Dağlıq Qarabağ məsələsi ətrafında Rusiya timsalında müəyyən hərəkətlilik müşahidə olunsa da, hələ ki bu, real irəliləyişə gətirməyib. Prezidentlərin sonuncu, Sankt-Peterburq görüşündən isə artıq iki ay ötür. Əfsus ki, ötən iki ay da münaqişə zonasında status-kvonu pozitivə dəyişmək üçün istifadə olunmadı və yeni müharibə ehtimalı gündəmdə qaldı.**




Hələ ki ATƏT-in Minsk Qrupu həmsədr ölkələri də bu maksimalist tələbi də məqbul hesab eləmir. Hər halda, bu yaxınlarda vasitəçi ölkələrdən birinin - Rusiyanın prezidenti Vladimir Putin bəyan elədi ki, münaqişənin elə həll variantı tapılmalıdır ki, Azərbaycan və Ermənistan özlərini nə qalib, nə də məğlub hiss eləsin. Putin onu da bildirdi ki, məsələ ərazi bütövlüyü prinsipi ilə təyini-müqəddəratın optimal uzlaşması əsasında yoluna qoyulmalıdır.

*****

Lakin bu iki prinsipi bir-biri ilə uzlaşdırmaq mümkünmü? Beynəlxalq hüquq üzrə mütəxəssislər bunu real saymırlar. Məsələn, **hüquq elmləri doktoru, professor İlham Rəhimov**un bununla bağlı, ümumiyyətlə, Qarabağ münaqişəsinin həllində son vaxtlar tez-tez danışılan "5+2" formulu barədə öz yanaşması var və bütünlüklə Azərbaycanın köklü maraqlarına əsaslanır.

Sputnik.az saytına açıqlamasında professor deyib: "Hər şeydən əvvəl, biz özümüz perspektiv əhəmiyyəti olan bir sıra prinsipial məsələlər üzrə mövqeyimizi müəyyən etməliyik. Əvvəla, ondan çıxış etmək lazımdır ki, yeddi rayon yox, məhz Dağlıq Qarabağ müzakirə predmeti olmalıdır. Çünki biz öz diqqətimizi, dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqətini bu ərazilərin azad edilməsinə cəmləşdirəndə Dağlıq Qarabağ məsələsində mövqeyimizi zəiflədirik. Hesab edirəm ki, Ermənistan bundan uğurla istifadə edir və diqqətimizi əsas müzakirə predmetindən yayındırır. Orda yaxşı bilirlər ki, işğal edilmiş rayonlar istənilən halda azad ediləcək, çünki bu işğal edilmiş ərazilər sovet dövründə DQMV-nin tərkibinə daxil deyildi. Onların məqsədi bu rayonlar yox, Dağlıq Qarabağdır. Əgər bu gün Ermənistan, hətta söhbət ona əslində lazım olmayan 5 rayonun azad edilməsindən gedəndə belə, çətinliklə və minnət qoyaraq danışıqlar masasına oturursa, sual yaranır: söhbət bizim üçün prinsipial olan Dağlıq Qarabağın statusundan gedəndə masaya oturacaqmı? Məhz buna görə "5+2, sonra status" formulu bizim üçün məqbul deyil".

**Hüquqşünas daha sonra Azərbaycanın söykənməli olduğu prinsipial mövqeyi belı ifadə edib:** "Hesab edirəm ki, Dağlıq Qarabağ problemi yalnız ölkə prezidentinin dəfələrlə və qəti şəkildə dediyi prinsipial müddəa əsasında həll edilməlidir: Dağlıq Qarabağ heç vaxt Ermənistanın tərkibində və ya müstəqil olmayacaq, onun statusu Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməlidir. Diqqəti daha bir vacib məqama cəlb etmək istəyirəm. Məlumdur ki, Qarabağ münaqişəsinin müzakirəsi zamanı Ermənistan hər zaman beynəlxalq hüquqdakı millətin öz müqəddəratını müəyyən etməsi hüquqi normasını əsas gətirir. Dünya praktikası göstərir ki, bu prinsiplə ərazi bütövlüyü prinsipi ziddiyyət təşkil edir. Hətta sübut etməyə cəhd etməyə dəyməz ki, erməni xalqının artıq öz dövləti var və ikinci dövlətin yaradılması məqbul deyil. Problem başqa yerdədir: təəssüflə qeyd edim, tez-tez eşidirik ki, dünya praktikasında millətin öz müqəddəratını müəyyən etməsi hüququ digər prinsip - ərazi bütövlüyü prinsipi üzərində dominantlıq edir. Məhz buna görə hesab edirəm ki, Dağlıq Qarabağın statusunu aydın olmayan şərtlərlə qeyri-müəyyən müddətə naməlum gələcəyə saxlamaq olmaz. Daha yaxşı olar ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində onlara ən yüksək status verilsin".

***

Təbii ki, hüquqşünaslar məsələdə hüquqi boşluqları və ya gizli təhlükəni daha yaxşı görürlər. Və ona da şübhə yox ki, hansısa həll modeli stolun üzərinə gələndə onların da rəyi öyrəniləcək və mötəbər sayılacaq. Ancaq ən yaxşısı o olar ki, bəri başdan bu təhlükəni görüb də onun yekun sülh anlaçmasında əksini tapmasına, Azərbaycan üçün tələ qurulmasına imkan verməməkdir.

Doğrudur, problemlə bağlı Kremlin hansısa planının, "Kazan sənədi"nin masa üzərində olduğu deyilir. Lakin həmin sənəd açıqlanmadığından, müxtəlif yanaşmaların ortaya çıxmasına səbəb olub. Hərgah, ümumi prinsiplər bəllidir. Söhbət problemin mərhələli həllindən gedir.

Belə görünür, bunu artıq vasitəçi dövlətlərlə yanaşı, Ermənistan da qəbul edib. Qalır mərhələli həllin praktikada hansı ardıcıllıqla həyata keçməsi və hər mərhələdə hansı qərarların alınması. Məhz bu xüsusda münaqişə tərəflərinin yanaşması diametral şəkildə bir-birindən fərqləndiyindən, nizamlama prosesini dalandan çıxarmaq mümkün olmur.

Məsələ ondadır ki, işğalçı Ermənistan "Dağlıq Qarabağın heç vaxt Azərbaycanın tərkibində olmaması" yanaşmasında təkid edir ki, bu da istənilən sülh prosesini bəri başdan sıfırlayır. Daha doğrusu, erməni tərəfi Dağlıq Qarabağ ətrafında cəmi 5 rayonun qaytarılması qarşılığında Dağlıq Qarabağa öz müqəddəratı təyinetmə hüququnun tanınmasını və bu tanınmaya qarantiya istəyir ki, buna da Azərbaycan heç vaxt razılıq verməz.

Bu tələnin baş tutmaması üçünsə hüquq professorunun da dediyi kimi, əsas diqqətimizi Dağlıq Qarabağın statusu məsələsinə yönəltməli, ermənilərin işğal altındakı ərazilərimizlə alver eləməsinə, öz torpaqlarımızı öz torpaqlarımıza dəyişmək kimi məkrli qurğusuna düşməməliyik. Separatçı rejimə hətta 50 il sonra da referendum haqqı tanına bilməz. Bu, ərazilərimizin öz əlimizlə sortlara bölünməsi, Dağlıq Qarabağı digər ərazilərdən az istəməyimiz demək olar ki, ermənilərə də elə bu lazımdır. Onlar o halda dünyaya daha ucadan car çəkəcəklər ki, "baxın, Dağlıq Qarabağ həqiqətən Azərbaycan üçün önəmli deyil, onun tərkibində olmayıb və mübahisəli ərazidir ki, Bakı referenduma razılıq verir".

**Məkrli və hiyləgər düşmənə bu şansı əsla tanımaq olmaz. Bununçünsə hüquq professorunun söylədiyi gerçəyi və etdiyi xəbərdarlığı daima göz önündə tutmaq yetər: müqəddərat təyinetmə prinsipi ilə ərazi bütövlüyü prinsipi bir arada ola bilməz, mümkün deyil! Özümüzü aldatmayaq.**


Elçin Quliyev

# "Azərbaycan əsgərinin döyüş əzmi Ermənistanın hərbi-siyasi rejimini sarsıdıb"

**"Milli Ordumuzun döyüş ruhu, yenilməzliyi bütün qoşun növlərində özünü göstərir". Bunu Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyev bildirib.**

O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ən müasir silah və hərbi texnika ilə təchiz edilən Azərbaycan Silahlı Qüvvələri aprel ayında ermənilərin təxribatına cavab olaraq düşmənin alınmaz hesab etdiyi mövqeləri, dislokasiya yerləri, komanda-dayaq məntəqələri, qərargahları qısa müddət ərzində darmadağın edilib.

"Azərbaycan əsgərinin şücaəti və döyüş əzmi Ermənistan hərbi-siyasi rejimini sarsıtdı və düşmən məğlubiyyətin qaçılmazlığını qəbul etmək məcburiyyətində qaldı. Əminik ki, ən qısa müddətdə xalqımız böyük zəfər gününü bayram edəcək, ərazi bütövlüyümüz bərpa olunacaq və bütün sərhəd xətti boyu şanlı dövlət bayrağımız dalğalanacaqdır", - deyə general qeyd edib.

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016

# Duzlu gölə şəfa ardınca gələnlər, yoxsa potensial xəstələr?

## Paytaxtın Hövsan istiqamətindəki göl vətəndaşların üz tutduğu əsas məkanlardan birinə çevrilib; Seyfəddin Əsəd: "Oynaq ağrıları, dəri xəstəlikləri, duzlaşma, sinir, əzələ ağrıları, revmatizmin müalicəsində, zob xəstələri üçün əvəzsizdir və çox gözəl effekt verir"









**Bu ünvandan çox yazılıb, çox deyilib. Elə bizim "Yeni Müsavat" qəzetində və Musavat.com saytında bir neçə dəfə Zığ-Hövsan avtomagistralının sağ kənarında yerləşən "Duzlu göl" barədə dəfələrlə reportajlar verilib. Ancaq üstündən illər keçəndən sonra baxırsan ki, "köhnə hamam, köhnə tas"dır...**

İnsafən, kasıblar üçün unikal ünvandır. Giriş qapısında avtomobilləri qarşılayan gənc çox yox, cəmi 50 qəpik alır. İçəridə də hər şey 50 qəpiyədir. Hər şey deyəndə ki, "müalicəvi" qara palçıq, yodlu palçıq, duş qəbul etmək... Amma bura gələnlər təkcə kasıblar deyil. Gölün ətrafına göz gəzdirdikcə nadir hallarda ucuz avtomobillər görürsən. Uşaqdan-böyüyə hər kəs ya özünü qara palçıqla, yodla "bəzəyib", ya ətrafdakı qumda "gizlənib", ya da duzlu gölə baş vurub.

Buradakı şəxslərlə söhbət əsnasında fərqli fikirlər eşidirik. Gözünün içinə qədər palçığa bələnmiş ucaboy bir kişi sualımızın cavabında "əlbət təsiri olur ki, bu qədər camaat bura gəlir də, yoxsa kim gəlib özünü palçığa batırar" deyə, bir az da əsəbi reaksiya verir.

Gölün kənarında oturub bədənindəki palçığın qurumasını gözləyən Nəcibə nənə isə deyir hər il bura gəlir: "Mənə bu göl barədə qohumum danışmışdı. İlk dəfə gələndə inanmırdım ki, palçıq adama neynəyər? Amma sonra özüm şahidi oldum, iki rus qadını Moskvadan bura gəlmişdi. Dedilər, həkim onlara bu gölü məsləhət bilib, özlərində də qadın xəstəliyi var imiş. Biz onsuz da çox sərvətlərimizin qədir-qiymətini bilmirik".

**Ayaqlarını quma basdırıb oturmuş yaşlı nənə isə bu gölün əhəmiyyəti ilə maraqlandığımı duyunca ürək dolusu faydasından danışır:** "Bala, atamın 90 yaşı var. Bütün günü ufuldaya-ufuldaya gəzirdi. Hara apardıqsa, dərdinə çarə eləyən olmadı. Bir gün oğlum kişini oturtdu maşına, gətirdik bura. Onu yaxşıca palçıqladıq, sonra gölə saldıq, quma basdırdıq. Axşam gedəndə dedi bala, deyəsən, axı canım rahatlanır. 10 gün gətirdik, gün-gündən yaxşılaşdı. Bütün günü dua edir, deyir elə bil təzədən dünyaya gəlmişəm".

Ardınca qadın yaxınlıqda oynayan nəvəsini çağırır, qızcığazın boynundakı yara izini göstərir: "Bax, uşağın boynundan nəsə çıxmışdı, apardım həkimlərə, dedilər gərək yarıb baxaq, görək nədir. Analizlərinə də 120 manat xərcləmişdik. Axşam qonşum dedi ki, neynirsən həkimi, apar duzlu gölə. Bax, 5 gündür gəlirik, girir suda özü üçün oynayır, artıq uşağın boynundakı yara tam sağalmaq üzrədir. Bir şeyi bilirəm ki, bu su Allahın möcüzəsidir".

**Gölün sahili boyu qara və yodlu palçıqla doldurulmuş vannalar qoyulub. Palçıq vannalarından birinin sahibi, belə demək mümkünsə, "çörəyi palçıqdan çıxan" gənc deyir ki, əslində 50 qəpik bu qədər əziyyətin müqabilində qiymət çox aşağıdır:** "Amma biz camaatın vəziyyətini nəzərə alırıq. Bu palçığı gölün dibindən ovuc-ovuc yığırıq. Çox əziyyətli işdir. İnan inandığımıza, olur ki, baxıram yaşlıdır, kasıbdır, heç pul götürmürəm. Görürəm kimsə təkid edir, deyirəm inşallah sağalandan sonra gəlib hörmət edərsən. Bu gün camaat od qiymətinə dərmanlar alıb içir, heç bir faydası olmur. Amma bura bir həftə 10 gələn adam artıq xeyrini görür. Bunun qarşılığında 50 qəpik, 1 manat nədir ki?" Adının çəkilməsini istəməyən gənc qarabağlı olduğunu deyir. Onu da əlavə edir ki, burada gölün dibindən palçıq yığıb satan 11 nəfər də onun həmyerlisidir: "Mən 7 ildir burda işləyirəm. Hələ görməmişəm ki, kimsə gəlib şikayətlənsin, desin boş yerə bura gəldim. Ən azı adamların əsəbləri sakitləşir, rahatlanıb gedirlər". Maraqlıdır, burada 12-ci adamın palçıq yığıb satması mümkündürmü? Sualın cavabında gülərək "yox, kimin nə ixtiyarı var, buralar nəzarətsiz deyil ki" söyləyir.

Qeyd edək ki, rəsmi qurumlar 16 il əvvəl "Duzlu gölü"n xəstəlik mənbəyi olmasını, buradakı antisanitariya vəziyyətini nəzərə alaraq orada çimməyi qadağan ediblər. Hesab olunur ki, şəfa ardınca gələnlər əslində potensial xəstələrə çevrilə bilər, çünki burada insanların xəstəliyə yoluxması mümkündür. Ancaq bu qadağaya heç kim məhəl qoymur və insanlar şəfa tapmaq üçün bu ünvana daha çox üz tutur. Elə söhbət etdiyimiz şəxslər də dedilər ki, əvvəlki illərlə müqayisədə gələnlər daha çoxdur.

***

**Söhbət etdiyimiz tanınmış həkim, müalicəsində daha çox təbii üsullara üstünlük verən Seyfəddin Əsəd isə** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ora birmənalı şəkildə möcüzə bir yerdir: "Oynaq ağrıları, dəri xəstəlikləri, duzlaşma, sinir, əzələ ağrıları, revmatizmin müalicəsində əvəzsizdir və çox gözəl effekt verir. Üstəlik, Duzlu göl zob xəstələri üçün də əvəzsizdir. Orada həm duz, həm də yod var. Gölün içərisində xırda qurdlar olur, amma onlar təhlükəsizdir, duzun içində yaşayır və insana heç vaxt heç nə eləmir. S.Əsəd dedi ki, ötən il özü də gölə müalicə məqsədilə gedirmiş, amma bu il vaxt tapa bilmədiyindən yalnız bircə dəfə ora baş çəkə bilib, özü də gecə: "Vaxtım olsa, hər gün gedərəm."

**Həkim Duzlu göldə müalicə olunmaq istəyənlərə məsləhətlərini də verdi:** "Çalışmaq lazımdır ki, ora gündüz saat 4-də, 5-in yarısında gedəsən. Duzlu suyun içində çox qalmağın heç bir ziyanı yoxdur. Palçığın effekti isə o vaxt güclü olur ki, adamın bədənində quruyur. Bəzən adamlar qaydaları bilmədiyi üçün göldən çıxandan sonra duş qəbul edirlər. Amma mən məsləhət görürəm ki, duz bədəndə axşam yatana kimi qalsın. O vaxta qədər bədən tərləyəcək. Ondan sonra isə duş qəbul edib yatmaq lazımdır. Bu zaman müalicənin effekti daha güclü olacaq".

**S.Əsəd Duzlu göldə xəstəliklərə yoluxma təhlükəsi barədə iddiaları təkzib etdi:** "Duzlu suda xəstəliklərə yoluxma ehtimalı heç cür mümkün deyil. Həmçinin dəri xəstəliklərinin yayılması mümkün deyil. Əksinə, bu su dəri xəstəliklərinin sağalmasına çox gözəl təsir göstərir. Oynaq ağrılarının aradan qaldırılması baxımından suyun effekti əvəzsizdir. Rayonlardan adamlar gəlir, yaxınlıqda kirayə ev tuturlar, bəzən sürünə-sürünə gəlib müalicə kursunu qəbul edib gedirlər. Effekti olmasaydı, insanlar bura gəlməzdilər. Mən efirdəki çıxışlarımda da hər zaman bu gölün müalicəvi əhəmiyyətindən danışıram".

**S.Əsəd sovet dövründə duzlu gölün guya araşdırıldığı və ziyanlı olması səbəbindən burada sanatoriya tikilməsi planının təxirə salınması barədə iddiaları absurd sayır:** "Sovet dövründə kim idi oranı araşdırıb-axtaran? O zaman bu göl heç gözə görünən şey deyildi. Bu, yeganə sudur ki, öz-özünə təbii filtrasiya var orda. Nə qədər pas tökülür, adamlar palçıqlı, yodlu bədənini orda yuyur, səhər görürsən yenə də su əladır, yüksək səviyyədədir".

**Ancaq buradakı şəraitsizlik, natəmizlik də çoxlarını narahat edir. Belə fikirlər də var ki, buralar abadlaşsa, sadə camaatın bura gəlişi çətinləşəcək. Əslən Füzuli rayonundan olan orta yaşlı bir həmsöhbətim bunları bildirdi:** "İndi giriş 50 qəpikdirsə, abadlaşdırandan sonra giriş azı 5-10 manat olacaq. Ancaq heç olmasa burda pul qazananlar təmizliyə baxsaydılar. Bəzən gölün ətrafında üfunətdən baş çatlayır, elə bil ki, yaxınlıqda heyvan cəsədi var. Düzdür, bura gələnlərin özləri də günahkardır. Burada istirahət edənlərin bir çoxu özlərindən sonra zibil yığnağını qoyub gedirlər, ətrafda qarpız-yemiş, kağız, sellofan qabıqları, yemək qalıqları qalaqlanır. Gərək səliqə-səhmana özümüz baxaq, diqqətli olaq, sərvətlərimizə dəyər verək. Əgər Allah bizə belə möcüzəni qismət edibsə, onun qayğısına qalmalıyıq, daha zibilliyə çevirməməliyik".

"Buraya çox imkanlı adamlar, məmurlar da gəlirlər. Bir də görürsən çox baha maşınlardan düşürlər, qara eynəkdə, baş geyimində gölə girirlər, ya bədənlərini palçıqlayırlar ki, ətrafdakıların diqqətini cəlb eləməsinlər, tanınmasınlar. Onlar buranın faydasını görüblər ki, gəlirlər də. Yoxsa pulunu "balta kəsməyən" adamlar niyə özlərini bu palçığa bulaşdırsınlar ki" - bunu da özünü quma basdırmış digər həmsöhbətim deyir.

***

Duzlu gölün gölün sahili boyu zibilqabılar qoyulub. Ancaq bura zibilin çox az hissəsi yığılır, əksəriyyət əlinə düşəni ətrafa tolazlamağa üstünlük verir. Təqribən 200-300 metrlikdə isə "Yodlu göl" var. Nisbətən kiçik olan bu göldə də xeyli adam çimirdi. Adamlar bədəninə yodlu palçığı sürtəndən sonra gölə girir və dincəlirlər. Bir həmsöhbətim deyir ki, bədənindəki səpkiləri məhz bu suda sağalda bilib. Başqası isə boğazındakı ağrılardan əziyyət çəkdiyini, bir həftə ərzində yüngülləşdiyini deyir: "Həkimə gedirsən, adamda olmayan xəstəlikləri "tapır", yüz cür dərman yazır, adamda yeni xəstəliklər yaranır. Heç olmasa bilirik ki, hətta bu suyun xeyri olmasa belə, ziyanı da yoxdur".

Beləcə, son zamanlar həkimlər, səhiyyə, dərman preparatları barədə yayılan neqativlər, bahalıq və s. amillər insanların bir çoxunu yolunu Duzlu göldən, "Yodlu göl"dən salmağa vadar edib. Elə biz də imkan düşmüşkən bu duzun, palçığın, yodun faydasından bəhrələnməyə çalışdıq. Ancaq deyilənlərə inansaq, azı 7-10 günlük kurs qəbul etmək lazımdır ki, faydasını hiss edəsən. Nə deyirik, təki Allah şəfa versin!

❑ E.PAŞASOY
❑ Foto müəllifindir

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016




Cümə söhbətləri

**Bismillahir-Rahmənir-Rahim! İnsanın bu dünya həyatında qarşılaşdığı əsas məsələlərdən biri də bəla və müsibətlərdir. Adətən biz bəla və müsibətlər dedikdə, insanın dünyəvi müstəvisində, adi həyat müstəvisində qarşılaşdığı cürbəcür çətinliklər, faciələr, problemləri nəzərdə tuturuq. Amma bir qədər dərindən nəzər salanda görəcəyik ki, bəla və müsibətlərin xarakteri iki cür ola bilər: dünya ilə bağlı bəla və müsibətlər və dinlə bağlı, aqibətlə bağlı bəla və müsibətlər. Çox diqqətçəkəndir ki, dünya ilə bağlı olan bəla və müsibətlərə bir baxış var, aqibətlə bağlı olan bəla və müsibətlərə bir başqa baxış var. Ona görə də, bəla və müsibətlərlə bağlı mübarək dinimizin baxışını diqqətə almaq olduqca vacibdir.**

# Bəlanı dəf etmək üçün effektiv vasitələr

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Bəzən müsibətlər, insan üçün mükafatın açarlarıdır

Həzrət İmam Həsən (ə) buyurur: "Müsibətlər, əcrin açarlarıdır". İnsana veriləcək mükafatın açarları - bəla və müsibətlərdədir. Yəni insanın həyatında qarşısına çıxan sınaqlar, müsibətlər ona veriləcək mükafat üçün açar rolunu oynayır. Bir məsələ var ki, insan əgər böyük günahlar etsə, Allahın bəyənmədiyi itaətsizliklər etsə, sonra da bəla və müsibətlərlə qarşılaşsa, bu, həmin buyuruşda gələn mövzuya aid deyil. Alimlərin bu barədə mübarək buyuruşlarında da bu mövzu açıqlanır. Günah insanın aqibətini zay edir, onu məhvə aparır. Adam gərək heç bir səbəbə görə günah etməsin. Bəli, bir çox bəla və müsibətlər insana böyük günahları ucbatından üz verir.

Buyuruşda isə insanın adi həyatında qarşılaşdığı bəla və müsibətlər nəzərdə tutulur. Həyat nəhayətdə bir sınaq meydançasıdır və burada adamın başına müsibətlər, bəlalar, imtahanlar gəlir. Əgər insan bu bəla və müsibətlərə Allahın hüzurunda bir sınaq, imtahan kimi baxsa, bu sınaqlardan doğru çıxsa, onun üçün əcrin açarlarına çevrilər. Bu mənada müsibətlər insan üçün əcrin açarlarıdır. Əgər imtahanlı, sınaqlı durumlarda insanın daxilində İlahi xof, təqvalı durum hakim olsa - o, Allah bəyənəni edər və mükafatını almış olar.

Bəla və müsibətlər nə qədər böyük olsa, onlardan düzgün çıxmaqla daha da böyük mənəvi yüksəliş əldə etmiş olar. Bəzən insan hansısa böyük sınaqlar, imtahanlar istəyir, qarşısına çıxanda isə çətin durumda qalır. Ona görə də, gərək biz çox da böyük məsələləri istəməyək. Elə şeyləri istəyək ki, onlara gücümüz çatacaq. Bu anlamda qarşıya çıxan müsibətlər insan üçün yeni imtahan, seçim müstəvisi, insanın bu dünya həyatında təkamülü üçün yaranan yeni bir mərhələdir. Əgər insan həmin mərhələdən Allah bəyənən kimi çıxsa, müsibətlər onun üçün əcrin açarına çevrilir.

## Ən böyük müsibət-dində müsibətdir

Həzrət Əmirəlmöminin İmam Əlidən (ə) ən böyük müsibət barədə sual verilləndə, cavabında buyurdu: "Dində müsibət". Bu, ikinci xarakter müsibətdir. İnsanın ən böyük, ən ağır, ən dəhşətli müsibəti, onu sarsıda biləcək müsibət - dinində olan müsibətdir. Bir var ki, insanın başına müsibət, bəla gələr, bunlar işlərlə, məişətlə bağlı olar. Bunlarda qeyri-adi heç bir şey yoxdur və insan gec-tez ondan çıxmış olar. Bu dünyanın mahiyyəti elə bu itkilər, bu bəlalar, müsibətlərdən ibarətdir. Amma, vay olar insanın halına ki, dinində müsibət yaşayar. Adam namazı, orucu, vacibatları tərk edər, ya namaz qılmaz, oruc tutmaq halı olmaz, hüzuru-qəlbini əldən verər, dinlə, inancla bağlı şəkk-şübhələr içinə düşmüş olar və s. Bu, onun üçün ən böyük müsibət olar. Dində müsibətdən daha böyük müsibət yoxdur. İnsanın ən böyük müsibəti budur və bu müsibət çox ağırdır. Kərbəla faciəsinin də təhlillərində bu mövzu xüsusilə keçir. Kərbəla faciəsi ona görə baş verdi ki, müsəlman toplumu dinində müsibət yaşadı. O toplum ki, Həzrət Peyğəmbər (s) dövründə mənəvi yüksəlişə çatmışdı, bir neçə on ilə dindarlıq müsibəti yaşadı və nəticə Kərbəladakı o faicə ilə tamamlandı. Ona görə də, Allah Təala bizlərə dində müsibətdən qurtulmağı nəsib etsin.

Həzrət Əli (ə) buyurur: "Ən böyük müsibət - qəlbi dünyaya bağlamaqdır". Çünki, insanın qəlbi dünyaya bağlansa, qəlbi dünyaya vurğun olsa, dinində müsibətlər yaşamağa başlamış olar. Dünyanın müxtəlif növləri var, müxtəlif təzahürləri, formaları var. Bunun ən bəsiti - dünyanın maddi tərəfləri ilə bağlıdır. Amma, dünya bununla yekunlaşmır. Hər nə ki, insanı bu dünya ilə bağlayır, müvəqqəti həyatla bağlayır - müsibətləri başlamış olar.

## Müsibətlərin asan olması üçün nə edək?

Həzrət Rəsulallah (s) buyurur: "Müsibətləri, xəstəlikləri və sədəqə verməyi gizlətmək - yaxşılığın xəzinələrindəndir". İnsan həyatında sınaqları, imtahanları olar, gözəl olar ki, insan onları səbirlilik edərək gizli saxlasın, çox təzahür etdirməsin.

Həzrət Peyğəmbər (s) buyurur: "Kim qəlbindən dünya məhəbbətini çıxartsa, müsibətlər ona asan gələr". İnsan qəlbindən dünyaya vurğunluğu, dünyaya məhəbbəti çıxarsa, müsibətlər ona asan gələr. Çünki, əksər imtahanlarımız, sınaqlarımız, müsibətlərimiz, ağrı və çətinliklərimiz o zaman olur ki, bizim dünyaya vurğunluğumuz olur. Əgər bu olmasa, imtahan və sınaqlar bizlərə çox asan gələr. Oradək çətin gəlir ki, biz burada möhkəm yapışırıq. Elə ki, buraya müvəqqəti yer kimi baxırsan, dünyadan möhkəmcə yapışmırsan, buradakı hər şey adama asan gəlir.

**Həzrət Əli (ə) buyurur**: "Ölümü, qəbirdən qalxıb Allah qarşısında dayanacağınız günü çox yada edin ki, müsibətlər sizə asan olsun". Adam ölümü yada salsa, müsibətin nə olduğunu anlayar. İnsan daim ölən gününü yada salmalıdır. Ölümü, qəbirdən qalxacağımız günü yada salanda, buradakı mövzular insana oyuncaq kimi gəlir. İnsan fərqinə varsa ki, öləndə burada olan məsələlərin onun dadına çatacaq halı olmayacaq, burada itirdiklərinə görə bir o qədər çətinlik çəkməz. Hətta bu dünyada bəzi şeylər var ki, insan üçün qəbirdən qalxandan sonra əlavə yük olacaq, onların hər birinin sorğu-sualı olacaq. Əgər bunları anlasa, bu dünyada itirdiklərinə görə üzülməz.

## Dində müsibət insanın namazında səhlənkarlıqlardan başlayır

Bu xüsusda gərək bizlər ilk növbədə namazlarımıza diqqət edək. Əgər namazlarımız qaydasında deyilsə, deməli dinimizdə müsibət yaşayırıq. Çünki dinin sütunu - namazdır. Bizim bütün durumumuzun göstəricisi - namazdır. Vəziyyətimizin, ruhiyyəmizin ölçü vahidi - namazdır. İlk öncə diqqət etməliyik ki, namazlarımızı vaxtında qılmağa nə qədər şövqümüz var. Digər tərəfdən namazı qılarkən düşüncəmiz, fikirlərimiz, ruhiyyəmiz nə qədər namazda olur? Hər növbəti namaz bizim üçün yeni bir mənəvi mərhələyə keçid olmalıdır.

## Namazın hansı hissəsi qəbul olar?

Əziz Peyğəmbərimiz (s) buyurur: "Bəzən bəndə namaz qılar, ancaq o namazın altıda biri, hətta onda biri belə onun üçün yazılmaz. Bəndənin namazından yalnız Allahı tanımaqla və diqqətini Ona yönəltməklə qıldığı qədəri hesaba alınar". Namazımızın o qədər hissəsi ki, Allahı tanımaq, mərifət və Allaha təvəccö, Allaha yönəlməklə qılınır - o qədəri qəbul olunur. Ona görə də namazlarımızda xüsusi diqqətli olmalıyıq. İnsan azan və iqamədə şəhadət gətirər, amma beyni başqa məsələlərdə olarsa, namazın həmin hissəsindən ona fayda gəlməz. Amma, insan hər azan verdikdə gətirdiyi şəhadəti duya, yaşayarsa, hər namaz onu yeni bir mərhələyə çatdırmış olar. Eləcə də namazın hər bir hissəsində insan etdiyi əməlin mahiyyətinə diqqət etsə, Allaha təvəccösü olsa, ona xeyri olar. Səcdəyə gedən insan tək bədəni ilə deyil, bütün varlığı ilə Allah hüzurunda səcdə etsə, o namaz insanı kamala doğru aparar. İnsan gərək hər səcdəsində öz mütiliyini, kiçikliyini, Allahın əzəmətini düşünsün, dərk etsin. Nə qədər namazı bu ruhiyyə ilə qılırıqsa, o qədər hissəsinin də bizə təsiri olur. Gərək bunun üçün namazlarımıza hazırlaşmaq üçün zaman ayıraq. Dəstəmaz almağa başlayandan, azan, iqamədən hazırlaşaq.

## Bütün ibadətlərin möhkəmliyi namazın möhkəmliyindən keçir

Həzrət İmam Baqir (ə) buyurur: "Namaz - dinin sütunudur. Namaz çadırın sütununa bənzər. Sütun möhkəm olsa, mıxlar və kəndirlər də möhkəm qalacaq, sütun əyilsə və sınsa, nə mıx möhkəm qalacaq, nə də kəndir". Biz bunun fərqində olmalıyıq ki, bütün işlərimizin, əməllərimizin, bəndəliklərimizin, ibadətlərimizin, hər bir məsələmizin başında, əsasında namaz gəlir. Gərək bunun fərqinə varaq. Namaz - bizim dinimizin sütunudur. Əgər namazımızda çətinliyimiz olsa, namaz qılmağa halımız, durumumuz olmasa, digər bütün məsələlərdə də elə olacağıq. Bu anlamda deyə bilərik ki, dində müsibət namazda müsibətdən başlayır. İnsan üçün davamlı olaraq namazına qarşı etinasızlıq - ən böyük müsibətdir. Bizim Allaha bəndəliyimizin sütunu - namazdır. İnsan elə etməlidir ki, hər növbəti namazı daha keyfiyyətli olsun. Amma, təəssüflər olsun ki, insan yeni namaza başlayanda namazlarına daha diqqətlə, daha böyük etina ilə yanaşır, amma zaman keçdikcə namazlar sanki adiləşir. Allah etməsin, özümüzdə hiss etsək ki, namaz qılmağa halımız yoxdur, güclə namazlarımızı qılırıq, görsək ki, namaz vaxtı gələndə durub qılmaq istəmirik, axıra saxlayırıq, qaçaqaçla qılırıq, bütün işlərimizi görəndən sonra buna vaxt ayırırıq - bilməliyik ki, daxilimizdə, varlığımızda, bəndəliyimizdə nəsə ciddi qüsurlar əmələ gəlib. Necə ki, qızdırma insanın müəyyən virusa yoluxmasının göstəricisidir, elə də insanın namazında olan qüsurlar onun bəndəliyində olan qüsurların göstəricisidir. Elə ki, namazla bağlı səhlənkarlığımız, namazla bağlı süstlüyümüz əmələ gəlib, bilməliyik ki, bəndəliyimizdə, halımızda pis bir vəziyyət yaşayırıq.

Amma insan hər bir namaza Allah hüzurunda böyük mənəvi fəthlərin başlanğıcı kimi baxa bilər. Əgər insan namazına bu cür yanaşsa, həyatında hər bir şey öz yerini tutar. Təəssüflər olsun ki, çoxumuz öz həyatımıza çox maddi, fiziki, cismani bucaqla baxmışıq. Bunun nəticəsində gerçək baxışımız çox aşağı gəlib.

**Allahım, bizlərə dünya müsibətləri qarşısında səbirli olmağı nəsib et!**

**Allahım, bizləri dinində müsibət yaşayanlardan qərar vermə!**

**Allahım, namazlarımıza daha diqqətli yanaşmağı bizlərə nəsib et! Amin!**

# Azərbaycanlılar Facebook-da niyə aqressivdir?

## Elnur Rüstəmov: "Bu, informasiya əsrinin bəlasıdır"

**İnformasiya texnologiyaları inkişaf etdikcə insanlar daha çox virtual, sosial şəbəkə vasitəsi ilə ünsiyyətə üz tutur, burada özünü ifadə etməyə çalışırlar. Lakin son illər Azərbaycanda sosial şəbəkələr, xüsusən də "Facebook" aqressiya məkanına çevrilib. Bir çoxları daxilindəki aqressiyanı virtual məkanda bölüşməyə, paylaşmağa çalışır.**




Xüsusən də ictimai-siyasi sektorda təmsil olunanlar, fəallar, jurnalistlər və digər bu kimi təbəqənin nümayəndələri bir-birinə qarşı aqressiv status və rəylər paylaşır, bəzən isə tənqidlə təhqirin yerini səhv salaraq xoşagəlməz davranışlar nümayiş edirlər. Sonradan isə məlum olur ki, sosial şəbəkədə bir-birinə təhqir yağdıran, qeyri-etik ifadələr işlədən şəxslər real həyatda üz-üzə gələndə normal münasibətdə olur, hətta birlikdə fikir mübadiləsi aparırlar.

Bəs görəsən, azərbaycanlılar niyə sosial şəbəkədə bu qədər aqressivdir? Virtual ünsiyyət niyə daha çox qeyri-pozitiv istiqamətdə gedir?

**"Psixologiya və Konsultasiya Mərkəzi"nin rəhbəri, tanınmış psixoloq Elnur Rüstəmov** suallarımıza bu cür aydınlıq gətirdi:

"Bu, informasiya əsrinin, virtuallaşmanın yaratmış olduğu problemlərdən biridir. İnsan virtual aləmdə ikiləşir. İnsan var ki, yaxşı qələmi var, amma yaxşı danışa bilmir. Və yaxud eləsi var ki, yaxşı danışır, amma dediklərini qələmə ala bilmir. Virtual aləmdə də belədir. Görürsən ki, virtualda elə şeylər yazır, amma həyatda utancaqdır, başını qaldırıb heç adamın üzünə baxa bilmir. Bu, informasiya əsrinin bəlasıdır. İnsanlar arasında canlı ünsiyyət azaldıqca bu problem böyüyəcək. Belə bir deyim var, "canlı ünsiyyət ülviyyətdir". Bu da çox vacib bir məqamdır. Bütün canlı ünsiyyətlər, sosial şəbəkə üzərinə keçib. Bu, insanı insandan uzaqlaşdırır və insanlıqdan çıxarır.

Əslində bu, çox təhlükəli bir tendensiyadır. Birinci növbədə insanlar arasında bağlılıq itməyə başlayır və ən böyük problem, insanlar arasında yadlaşma, özgələşmə yaranır. Nəticədə gün ərzində kriminal hadisələrin şahidi oluruq, xüsusən də amansızlıqla qətlə yetirmə olayları ilə. Ər-arvad, yaxın, doğma insanlar arasında bir-birinə qarşı biganəlik, bu günlə yaşamaq, əlində fürsət olan kimi başqalarını əzmək, sanki qisas almaq kimi davranışlar ortaya çıxır, sosial-şəbəkələrdə həqarətlərin, tanınan ictimai insanlar arasında yeri gəldi-gəlmədi "qara yaxmaq" kimi olaylara şahid oluruq. Hesab edirəm ki, bununla bağlı ictimai qınaq olmalıdır. Özü də sərt şəkildə olmalıdır ki, bir insanı tənqid etmək olar, amma təhqir yox! Nəzərə almaq lazımdır ki, o insanın ailəsi, uşaqları, yaxın çevrəsi var. O insanı təhqir etməklə həm də yaxınlarına həqarət edilmiş hesab olunur.

İstənilən halda bu kimi amillər insanın psixologiyasını zədələyir. Və bir-iki bu cür insanın hesabına bütün insanlara qarşı neqativ bir fikir formalaşır, insani dəyərlər arxa planda qalır. Ola bilər ki, bir insan öz eqosunu tətbiq edib kiməsə təhqir etməklə rahatlaşsın, amma nə qədər insanlara böyük zərər vermiş olur.

Çox yaxşı olardı ki, bununla bağlı inzibati tədbir görülsün".

Qeyd edək ki, sosial şəbəkələrdə aqressiyanın artması təkcə ölkəmizdə deyil, bir çox inkişaf etmiş ölkələrdə də müşahidə olunmaqdadır. Artıq bununla bağlı Avropa Komissiyası və "Facebook", "Tvitter", "YouTube" və "Microsoft" internet resusları aqressiyaya qarşı birgə mübarizə aparacaqlarını bildirib. Bununla bağlı Avropa Komissiyası şirkətlərlə müvafiq sənəd də imzalayıb. Sənədə əsasən, bundan sonra sosial şəbəkələrdə istifadəçilərin yerləşdirdiyi aqressiv statuslar həmin şəbəkə administrasiyası tərəfindən analiz ediləcək. Statuslarda ədavəti qızışdıran məzmun aşkar olunduğu təqdirdə onlar 24 saat ərzində silinəcək və ya məzmunu dərc edən şəxs blok olunacaq.

❑ X.GƏRAY


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# "Quyruq doğdu", yoxsa "quyruq dondu?

## Firudin Qurbansoy: "Nə bu, nə də digər ifadə doğru deyil"

**Avqust ayında tez-tez eşitdiyimiz bir ifadə var: "quyruq dondu", bəzən isə "quyruq doğdu" deyirlər. Bəs bu ifadələr niyə və nə zaman işlədilir? Qeyd edək ki, gənclər üçün bu ifadələr yad olsa da yaşlı nəslin əksəriyyəti, xüsusən də rayon və kənd bölgələrində yaşayan insanlar yay fəslinin yarı olan gününü "quyruqdoğdu" və ya "quyruq dondu" adlandırırlar.**

Folklorşünaslar qeyd edir ki, "quyruqdoğdu" avqust ayının 5-nə təsadüf edir və həmin dövrdə səmada quyruğa oxşayan ulduzlar göründüyü üçün xalq arasında belə adlandırılır. Əkinçilik təsərrüfatında bu ulduzların görünməsi yay şumunun başlanmasına işarədir. Həmin vaxtdan sonra havalar nisbətən sərinləşməyə başlayır, gecələr şeh düşür. Torpağı yayda şumlayardılar ki, payız əkininə qədər Günəş şüaları torpağı qovursun. Bu zaman məhsul bol olardı. Əkinçilərin dediyinə görə, "quyruq doğana" qədər ot-küləş yığılmazdı. Çünki ot ovulub yerə tökülür, tozu isə otu yığan adama zərər verir. Ancaq "quyruq doğandan" sonra yerə şeh düşər, bu da küləşin, otun yığılıb daşınma işini asanlaşdırar. Xalqın qənaətinə görə həm də "quyruq doğana" qədər bal kəsmək olmaz, çünki həmin vaxt bal sulu olar. Yalnız "quyruq doğandan" sonra bal kəsilərdi.

Bəzi bölgələrdə isə xalq arasında avqustun 15-i günü "quyruq dondu" adlandırılır. Deyimə görə bu vaxt havalar dəyişdiyindən yaylaqda kəsilən qoyun-quzunun quyruğu donar. Deyim də elə bundan yaranıb. Naxçıvanın bəzi bölgələrində bu dövr "quyruq doldu" adlandırılır. **Tarix üzrə fəlsəfə doktoru Asəf Orucov** bununla bağlı öz araşdırmalarında qeyd edib. Onun qənaətinə görə, bu onunla izah edilir ki, həmin dövrdən artıq çöldə otlayan qoç və qoyunun quyruğu dolmağa (kökəlməyə) başlayır. Lakin toplanmış materiallardan məlum olur ki, bu nə quyruğun donması, nə də quyruğun dolması ilə bağlı deyil. Çünki bu vaxtdan təsərrüfatın digər sahələrində, atmosferdə də dəyişiklik əmələ gəldiyi müşahidə edilir.

Bəzi iddialara görə isə avqustun 15-də Ayı bürcündə dalbadal quyruqlu 2 ulduz görünür. Həmin ulduzun doğması ilə əlaqədar bu vaxta "quyruq doğan" deyilir.

Bəs əslində həmin vaxt səmada nə baş verir? **Tanınmış astroloq Firudin Qurbansoy**un sözlərinə görə nə "quyruq doğan" nə də "quyruq donan" ifadələri doğru deyil: "Doğru olan "quyruq" deyil, "quruq"dur. Həmin vaxt Sirius ulduzu çox işıqlı görünür. Qədim türk dilində "tüklü" deməkdir, yəni tüklü kimi görünür. Biz də çox şeyin adını dəyişdirirlər, burda da "quruğ"a "quyruq" deyirlər. "Quyruq doğdu" deyəndə bir qədər gülməli çıxır, ona görə də deyirlər "quyruq dondu". Qədim türk dilində "quruq" "işıqlı" deməkdir. Sirius ulduzu da çox işıqlı olduğuna görə onu "quruq, "tüklü ulduz" adlandırırlar. Sanki ətrafında tük var, bu onun şüalarıdır. Bu ulduz iyul ayından, səhərə yaxın görünməyə başlayır. Çox işıqlı ulduzdur və əslində iki dənədir. Burada qeyri-adi bir şey yoxdur. Sadəcə, həmin vaxt hava təmiz olur və digər fəsillərə nisbətən o ulduz daha yaxşı görünür. Amma həmin vaxt səmada nəsə fövqəladə hadisə baş verməsi və yaxud bunun kənd təsərrüfatı ilə bağlı olması, hamısı əsasızdır".

❑ XALİDƏ


## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə.**
**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**
**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

YENİ MÜSAVAT
N 182 (6503) 19 avqust 2016

# Benzinin qiymətində ucuzlaşma olmayacaq

## Ekspert deyir ki, benzinin idxalına tətbiq olunan güzəştlər müvəqqətidir

**Azərbaycanda idxal olunan aşağı oktanlı benzinə tətbiq olunan gömrük rüsumu ləğv edilib. Nazirlər Kabineti "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında" 2001-ci il 19 yanvar tarixli 20 nömrəli qərarında dəyişiklik edib.**



Dəyişikliyə əsasən, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə mühərrik benzinlərinin hər 1 tonu üçün aksiz vergisi 200 manatdan 1 manata endirilib. Qərar avqustun 16-dan etibarən qüvvəyə minib və 60 gün müddətində qüvvədədir.

Nazirlər Kabineti həmçinin "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında da dəyişiklik edib. Dəyişikliyə əsasən, 92 oktanlı benzin üçün gömrük rüsumu 15%-dən 0%-ə endirilib. Bu qərar avqustun 16-dan etibarən qüvvəyə minib və 60 gün müddətində qüvvədədir.

Bu qərar ölkə əhalisində çaşğınlığa səbəb olub. Verilən qərarın səbəbi açıqlanmadığından cəmiyyətdə benzinin ucuzlaşacağına dair bir inam formalaşıb.

*Bəs, görəsən əslində bu qərarın səbəbi nədir və 921 oktanlı benzin ucuzlaşa bilərmi?*

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu qərar verilərkən qiymət dəyişikliyi nəzərdə tutulmayıb: "Hökumət bu qərarın hansı zərurətdən doğduğunu izah etmədiyinə görə cəmiyyətdə çaşqınlıq yaranıb. Səbəb isə odur ki, Azərbaycanda 60 gün müddətində Ai-92 markalı benzinin idxalına ehtiyac yaranıb. Adətən hər ildə bir dəfə neft ayırma zavodları plana uyğun olaraq təmirə dayanırlar. Bu il də təmir işləri avqust ayına salınıb. Adətən təmirdən əvvəl zavodun rezervuarlarında yanacağın ehtiyatı toplanır ki, təmir gedən zaman daxili bazarda hər hansı problem yaşanmasın. Ancaq hazırda H.Əliyev adına Neft Emalı Zavodunda SOCAR həm də modernizasiya işləri də görür və bir neçə qurğunun yenilənməsi prosesi gedir. Ona görə də təmir işlərinin müddəti əvvəlkindən daha uzun çəkəcək. Nəticədə rezervuar parkında olan ehtiyat hesabına ölkənin Ai-92 markalı benzininə olan tələbatını ödəmək mümkün olmayacaq. Yəni idxala ehtiyac yaranıb. Qiymətin daxili bazarda dəyişməməsi üçün isə Nazirlər Kabineti məlum qərarı verib. İdxal aksiz dərəcələrinə yenidən baxılıb və konkret desək, Ai-92 markalı benzinin 1 tonu üçün aksiz rüsumu 200 AZN-dən 1 AZN-ə endirilib".

**Ekspert qeyd etdi ki, bu benzindoldurma stansiyalarında Ai-92 markalı yanacağın qiyməti aşağı düşəcəyi anlamına gəlməməlidir:** "Ai-92 ölkəyə idxal olunmurdu ki, indi də Nazirlər Kabinetinin bu qərarından sonra qiymətə təsir edəcək bir amil ortaya çıxsın. İkincisi, Nazirlər Kabinetinin qərarı limitlidir, yəni 60 gün ərzində qüvvədədir, 15 oktyabrda qüvvədən düşəcək. Bu praktika dünyanın hər yerində var. Dünyadakı hər bir neftayırma zavodu ildə bir dəfə təmirə dayanır, istər Bakıda olsun, istər Təbrizdə, istərsə də Texasda. Bunu texnoloji proseslər tələb edir. Sadəcə, hazırkı təmir işlərinin miqyası böyükdür və rezervuarlarda yığılan neft məhsulları ehtiyatları bu müddətdə ölkənin daxili tələbatını ödəməyə yetərli olmayacaq. Bu baxımdan, hökumət idxaldan gələn vergini minimuma endirməklə, daxili bazarda qiymətlərin stabil qalmasına şərait yaradıb. Bunun üçün də idxal dövründə aksiz vergisindən dövlət büdcəsinə çatacaq vəsaitdən imtina edib".

**Sonda onu da qeyd edək ki, Aİ 92 markalı benzinin qiyməti Tarif Şurası tərəfindən tənzimləndiyi üçün bu qiymətə bazarın təsir imkanları məhduddur.**

❑ Nərgiz LİFTİYEVA

## Akif Nağı cinayət məsuliyyətinə cəlb oluna bilər, amma...

**Rio-2016-da azərbaycanlı idmançıların uğursuz çıxışı gündəmin əsas mövzularından birinə çevrilib. Xüsusilə də yunan-Roma güləşçimiz Rəsul Çunayevin yarımfinalda erməni rəqibinə məğlub olması sosial şəbəkələr və mətbuatda ciddi müzakirələrə səbəb oldu.**



Bu məsələ ilə bağlı tənqid olunanlar sırasında gənclər və idman naziri Azad Rəhimovun adı ön sırada gəldi. İdmançıların uduzmasına görə onların özündən çox, nazir qınanıldı. Hətta Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı facebook səhifəsində status yazaraq A.Rəhimovun dərisinin soyulmalı olduğunu bildirdi.

Bəs bu kimi fikirləri sosial şəbəkədə səsləndirmək cinayət əməlidirmi? Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlamasında **hüquqşünas Müzəffər Baxış** bildirdi ki, bu kimi çağırışlar cəzasız qalmamalıdır: "Cinayət Məcəlləsinin 28-ci maddəsinə görə (cinayətə hazırlıq) ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olan əməldir. Yəni həmin şəxs çağırışlar edib, belə çağırışlar isə cinayətə hazırlıq əlamətlərinin tərkibinə daxildir. Bu cür olan halda əslində Akif Nağı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə, cinayət məsuliyyətinə cəlb olunmalıdır. Lakin məsələ burasındadır ki, oxşar hallar daha öncə də müşahidə olunub. Belə ki, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev də dəfələrlə bu kimi çağırışlar edib, ancaq onun barəsində heç bir tədbir görülməyib. İndi də Akif Nağı oxşar çağırışlar edir. Məsuliyyətə cəlb edilmə olmayacaqsa, bundan sonra da bu kimi çağırışların sayı artacaq. Sonda yəqin ki, bu, cinayət hadisəsi ilə nəticələnəcək və bizim hüquq-mühafizə orqanları ayılacaqlar ki, zamanında həmin şəxsləri törətdikləri cinayət əməlinə görə məsuliyyətə cəlb etmək lazım idi".

**Hüquqşünas belə halda qarşı tərəfin nə edə biləcəyini də söyləyib:** "Qarşı tərəfin məhkəməyə müraciət etməyinə gərək yoxdur. Cinayət Məcəlləsinə görə bu qəbildən olan cinayətlər ictimai ittiham qaydasına görə təqib olunan cinayətlərdir. Bu kimi çağırışlar kütləvi informasiya vasitələrində də yayılırsa, onun haqqında cinayət işi başladılır və həmin şəxs cinayət məsuliyyətinə cəlb edilir".

❑ Əli RAİS

# Hər yazar yazıçımı?

**Müasir dövr yazarları üçün roman yazmaq dəbə çevrilib. Hekayə janrında özünü sınamayanlar belə birbaşa roman mərhələsinə adlayırlar. Bir çox hallarda isə bu cür fəaliyyətdən sonra özlərini "yazıçı" adlandırırlar. Bəzən bu, kimlərdəsə qıcıq yaradır. "İnsan özünə yazıçı deməməlidir, bu ünvanı ona xalq verməlidir" kimi etirazdan tutmuş, Sovet dövrünün böyük yazıçıları ilə müqayisələrə qədər uzanır müzakirələr. Yəqin ki, siz də belə etirazlarla qarşılaşmısız: "Filankəsə yazıçı deyiriksə, İlyas Əfəndiyevə nə deyək o zaman?"**



**Mirmehdi Ağaoğlu:** "Əlinə qələm alıb bədii əsər yazan adam yazıçıdır, amma..."



**Qan Tural:** "Məsləhət görürəm ki, qıcıqlananlar əsərləri oxusunlar və özləri qərar versinlər"



**Şahbaz Xuduoğlu:** "Kim özünə nə demək istəyirsə, deməlidir"

Bəzilərinə görə, ümumiyyətlə, bu cür məsələlərdə insanlar özləri təvazökar davranmalıdır. Bundan başqa, "hər roman yazanın, buna iddia edənin də əsəri çap olunmamalıdır" kimi bir yanaşma var. Bir qism düşünür ki, bu əsərlər çapa verilməzdən əvvəl Sovet dövründə olduğu kimi bir şuranın müzakirəsindən keçməli, razılıq veriləndən sonra çap prosesi baş verməlidir.

*Əslində necə olmalıdır? Yazıçılığa iddia edənlərin özünü bu cür adlandırması normaldırmı? Hər roman yazan və bunu çap etmək istəyənə "yaşıl işıq" yandırılmalıdırmı?*

**Yazar Mirmehdi Ağaoğlu** bunu ədəbi həyasızlıq adlandırdı. Onun sözlərinə görə, hazırda bu cür mənzərələri sosial şəbəkədə tez-tez görmək olar: "Baxırsan ki, heç düz-əməlli bir hekayəsi yoxdur, amma "Facebook"un "haqqında" bölməsində özü barədə yekə-yekə yazar yazıb. Və ya bir də görürsən təzə-təzə yazmağa başlayan birisi tanınmış bir yazıçı ilə söhbət edəndə qayıdıb deyir ki, filan əsərimdə mən bu barədə demişdim. Bütün bunlar nadanlıqdan qaynaqlanır. Əlbəttə, özünə yazıçı da demək olar, hansısa məclisdə özündən sitat da gətirmək olar. Bunun üçünsə gərək sən yerini biləsən. Məsələn, mən Əkrəm Əylislinin qarşısında yazdıqlarımdan bağıra-bağıra danışmağa utanaram. Öz mətninin bədii gücünü bilməyən biri əlbəttə o məsuliyyəti hiss etmədiyi üçün hər yerdə car çəkib "Mən yazıçıyam" deyə, bağıracaq".

**Müsahibimiz eyni zamanda bildirdi ki, əlinə qələm alıb bədii əsər yazan adam yazıçıdır. Bu peşənin adı budur. Necə ki, 40 ilin müəlliminə də, "ibtidai sinif müəllimi" ixtisasını təzəcə bitirənə də müəllim deyirlər, yazıçılıqda da belədir:** "Amma gərək elə edəsən ki, o adı qazana biləsən, yazdıqların ona layiq olsun, kənardakılar sənə yazıçı, şair desin. Yox, əgər sən bu adı hələ qazana bilməmisənsə, onda "yazıçı, şair" adı sənə ancaq ləqəb kimi yapışacaq".

**Kulis.az saytının baş redaktoru, yazıçı Qan Turalın** isə məsələyə baxışı fərqlidir. Onun sözlərinə görə, əlbəttə, yazıçı özünü sağıcı, mexanizator ya da tokar adlandırmamalıdır. Nəsr yazırsansa, deməli, yazıçısan: "Son sözü ədəbi tənqid, zaman və oxucular deyəcək. Lakin bu son söz deyilənə qədər bir yazıçını yazıçı adlandırsaq yaxşıdır. Yazıçı sözünün ağırlığı var, bunu anlayıraq. Lakin eləcə fizik sözünün də ağırlığı var, eləcə riyaziyyatçı sözünün də ağırlığı var. Sözlər istedadı təyin etmir. Eləcə titullar da. Məsləhət görürəm ki, qıcıqlananlar əsərləri oxusunlar və özləri qərar versinlər. Onlar oxuyana qədər biz özümüzü müvəqqəti olaraq çilingər adlandıra da bilərik".

*Yaxşı, bəs naşirlər bu haqda nə düşünür? Hər "roman yazmışam" deyən şəxsin gətirdiyi çap olunurmu, olunmalıdırmı? Bir ədəbi komissiya həmin əlyazmalara baxış keçirirmi?*

**"Qanun" Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu** hesab edir ki, kim özünü necə adlandırırsa, odur. Onun fikrincə, kimsə özünə yazıçı deyirsə, ya yazıçıdır, ya da yazıçılığa iddialıdır, bu istiqamətdə çalışan adamdır: "Bu cür məsələlərə pis baxmıram. Sovet dönəmində də olub. Zamanında yazıçı adlandırılan adamların cəmi bir-iki hekayəsi çıxıb. Amma həyat tərzi yazıçılıq olub. Çox adam yazır, kitablar çıxır, çıxmalıdır, amma bu, azdır. Yazı azalıb ümumiyyətlə. Beş-altı nəfər adamın yazarlıq adına nələrsə etməsi çox kiçik rəqəmdir. Vaxtilə bir gündə bir mətbəədə 23-24 gündəlik qəzet çıxırdısa, bu gün ölkədə ümumən o qədər qəzet çıxır. Kitablar hər zaman çıxıb, indi daha çoxdur. Amma əhalinin sayına, təhsili ocaqlarının sayına, təhsili insanların ümumi sayına baxanda bizim kitablar həcm, say baxımdan azdır. Gürcüstanda bu rəqəm bizdən 10 dəfə çoxdur. Həm çeşid, həm say baxımdan".

**Müsahibimiz hər yazanın özünə "yazıçı" deməsi ilə bağlı yanaşmanın müxtəlif olduğunu dedi. Onun fikrincə, ümumiyyətlə, yazmaq şəxsi məsələdir:** "Bir nəfər şeirlərini gətirmişdi. Ona mədəni şəkildə dedim ki, "olar bunları çap etməyəsən? Daha faydalı işlə nəğul olasan". Dedi, mən yazmasam, ölləm. Onu yazdıqları yaşadır. Baxmayaraq ki, bəlkə də tərcüməçi kimi daha effektli fəaliyyət göstərə bilərdi. Yazar adamların sayı nə qədər çox olsa, bir o qədər yaxşıdır. Xaricdə gedəndə müşahidə edirik ki, hər adam yazır, qeyd edir, gəzdiyi, gördüyü yenilikləri bağlı bloqunda yazır və sair. Bizdə isə yazmaq ənənəsi yoxdur. Bizdə elə fikir var ki, acaq şair və yazıçı yazmalıdır".

Ş.Xuduoğlu hər addımda özünü "yazıçı" adlandıran, bütün insanlara özünü o cür təqdim edən şəxslərlə bağlı da maraqlı paralel apardı. Dedi ki, "siz heç görmüsüz ki, ciddi bir jurnalist maşının üstünə PRESS yazsın". Müsahibimizin fikrincə, kim özünə nə demək istəyirsə, deməlidir. Bunu ona qadağan etmək olmaz: "Bizim insanlar telekanallardakı verilişlərə zəng edib, özlərini filankəs müəllim, filankəs xanım, filan şair kimi təqdim edirlər. Halbuki ünsiyyət qaydaları var və bu, etik qaydalarla müəyyənləşir. Normaya sığmalıdır. Bunu da kənardan tətbiq etmək olmaz".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
Son səhifə
N 182 (6503) 19 avqust 2016

# Dünyanın ən məşhur pələngi öldü



Bir çox sənədli filmlərin qəhrəmanı olan 19 yaşlı pələng Maçli Hindistanda ölüb. Bu barədə "The Times of India" xəbər yayıb. Ölümündən 5 gün əvvələ qədər Maçli yemək yeməyi dayandırıb. Veterinarlar onun üzərində ciddi müşahidə aparıblar və yedizdirməyə çalışıblar. Amma heyvan dirəniş göstərərək yeməkdən imtina edib. Pələng Rantambor parkı yaxınlığındakı meşədə yaşayıb. Onu ilk dəfə 1998-ci ildə fərq ediblər. Həyatı boyunca onu bir neçə dəfə sənədli filmə çəkiblər ki, bunlardan da ən məşhuru 2012-ci ildə, Böyük Britaniyada çəkilmiş "Maçli - pələnglərin qəhrəmanı" adlı film olub.

Bundan başqa, o, dünyanın ən çox fotosu çəkilən pələngi olub. Pələng hər il parkın büdcəsinə 10 milyon dollar xeyir gətirib.

# Qadınlar bu 4 harakati edəndə kişilar xoşbaxt olur

Psixoloqlar araşdırmalar zamanı müəyyənləşdiriblər ki, kişiləri xoşbəxt edəcək dörd sirli hərəkət var. Bunlardan birincisi onlara cazibədar olduqlarını deməkdir. İkincisi səssizlikdir. Bəzi kişilər səssizdir. Bu, onların qəmgin olduğunu göstərmir. Əksinə, kişilər xoşbəxt olduqları zaman susurlar. Qadının da səssizliyi münasibətlərdəki etibar hissini artıra bilər. Üçüncü sirr isə tövsiyələrlə bağlıdır. Belə ki, kişilər sevdikləri qadının onlara hansısa problemlə bağlı müraciət edib məsləhət almalarını arzulayır. Bu halda kişi özünü çox vacib, mühüm şəxs hesab edir. Dördüncüsü və ən vacibi isə qadınların makiyajdan istifadəsini müşahidə etməkdir. Düzdür, kişilər bu prosesi işgəncə hesab edir, amma onu izləməkdən zövq alırlar. Ona görə də makiyajdan istifadə edərkən qadınların qapını açıq qoyub kişilərin onlara baxması üçün şərait yaratması arzuolunan haldır.





## Qadın 17 aydır hamilədir və doğmur...

Çində yaşayan qadının 17 aylıq hamiləliyi dünyanı şoka salıb. Lenta.ru saytının xəbərinə görə, bu faktora görə qadın rekorda imza atıb. Van Şi adlı qadının dediyinə görə, o, 2015-ci ilin fevral ayında hamilə qalıb. Qadın 2015-ci ilin noyabr ayında körpəsini dünyaya gətirməli olsa da, durumunda heç bir dəyişiklik baş verməyib. "Həkimlər deyir ki, 13 aylıq hamiləlikdən sonra uşaqlarını dünyaya gətirən qadınlar var, amma bu hadisə istisnadır".

Həkimlər 18 ay davam edən hamiləliyin səbəbini açıqlaya bilmirlər. Amma onlar hamilə qadının səhhətinə hər hansı təhlükə olmadığını deyirlər. Bətndəki körpənin çəkisi isə 3.8 kiloqramdır. "Shanghaiist" nəşrinin yazdığına görə, həkimlər Şidən xahiş ediblər ki, ultrasəs müayinəsindən keçsin, amma o, bunu rədd edib. Qadını müayinə edən həkimlərdən biri isə deyib ki, onun fikrincə, qadın hamiləliyinin 38-ci həftəsindədir. Həkimlər onun hamiləliyinin müddəti barədə hər hansı sübuta malik deyillər. Yəni hər kəs Şinin sözlərinə əsasən, onun 17 aydır hamilə olduğunu deyir.



## 71 yaşlı fermer modellik etdi,27 milyon adam...

Çinin Xenan bölgəsində yaşayan 71 yaşlı fermer Van Çjunsun moda jurnallarından birinə fotosessiya etdirib. Gənc stildəki geyimdə şəkil çəkdirən kişi bununla da hər kəsin diqqətini cəlb edib. Təqaüdçü cins şortda, son dəbli eynəkdə, rəngli köynəkdə və bəzi aksesuarlarda çox gözəl görünüb. Bu günə qədər onun fotolarına 23 milyon dəfə baxılıb, bir o qədər də layk və pozitiv rəylər əks olunub.

Yaşlı kişiyə kompliment deyənlərlə yanaşı, onunla tanış olmaq istəyən qadınlar da xeyli sayda olub. Xəbərlərdə qeyd olunur ki, ördək fermasında çalışan kişi adəti üzrə çox məşğul olur, amma o, bir günlük də olsa, işlərini axsadıb. Təqaüdçülərin fərqli stildə obraza girməsi və imic dəyişikliyinə görə populyarlaşması birinci dəfə deyil. Bu ilin iyulunda İnstaqramda texaslı yaşlı İrvin Rendlın fotosessiyası yer almışdı.




QOÇ - Maliyyə məsələləri ilə bağlı əlverişli gün olsa da, çox güman ki, mübahisəsiz keçinməyəcəksiniz. Ədalətli qərarlara hörmətlə yanaşın. Nahardan sonra səfərə çıxmağa dəyər.

BUĞA - Böyük dəyişikliklər astanasındasınız. Ulduzlar sürpriz dolu məqamlar yaşayacağınıza imkan verəcək. Amma belə anlarda kiməsə yalan satmaq, hiyləgərlik etmək yolverilməzdir.

ƏKİZLƏR - Olduqca müəmmalı gündür. Ətrafınızda cərəyan edən proseslərdən baş çıxara bilməyəcəksiniz. Bu səbəbdən də hər hansı addımı atmazdan qabaq ehtiyat tədbirlərinizi artırmalısınız.

XƏRÇƏNG - Aktiv gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Tərəddüd etdiyiniz məsələlərdə mütləq məsləhət alın. Nahar ərəfəsindən sonra sevindirici hadisələr gözlənilir.

ŞİR - Neçə gündən bəri başladığınız işgüzar fəaliyyətinizi bu təqvimdə də davam etdirməlisiniz. İşlə bağlı qarşınızı kəsən bütün maneələri dəf etməyə çalışın. Kənar təsirlərə aludə olmayın.

QIZ - Həddindən ziyadə uğurlu gündür. Ovqatınız xoş, maddi durumunuz isə qənaətbəxş olacaq. Odur ki, bu istiqamətdə aktivliyinizi artırmalısınız. Ailə problemlərinə biganə yanaşmayın.

TƏRƏZİ - Şəxsi büdcənizdə irəliləyişə nail olmaq üçün gözəl şanslarınız var. Uzun müddət ala bilmədiyiniz borclarınızı və ya haqqınızı almaqda ulduzlar sizə kömək göstərəcək. Axşamı evdə keçirin.

ƏQRƏB - Göy qübbəsinin qənaətlərinə görə, yavaş-yavaş həyatın nəbzini tutmağa başlamısınız. Daxili sarsıntılarınız da səngiməkdədir. Gününüzü daha maraqlı etmək üçün qonaq getməyə çalışın.

OXATAN - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan əhatədə də iştirak edə bilərsiniz. Yeni iş üslubuna keçmək barədə tərəfdaşlarınızla bir daha götür-qoy edin.

OĞLAQ - Müəyyən məziyyətlərinə görə uğurlu gün hesab etmək olar. Ailə-sevgi münasibətlərindən tutmuş iş prinsipinə qədər rastlaşdığınız olaylar yalnız xeyirli olacaq. Özünüzü bədbinləşdirməyin.

SUTÖKƏN - Ümumi əhvalınız qənaətbəxş olsa da, iş yerində çətinliyiniz gözlənilir. Bu səbəbdən üzərinizə düşən vəzifələrin məsuliyyətini hiss etməlisiniz. Axşam uzaq yola çıxmağa dəyər.

BALIQLAR - Son vaxtlar özünüzə qapılmağınız heç də ulduzların xoşuna gəlmir. Çünki bu kimi hallar insanın ümidini qırır. Nahardan sonra qonaq gedin ki, fikriniz dağılsın. Pul da gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Özü ilə 15 kilo qurudulmuş tırtıl aparırdı, yaxalandı

Dünyanın ən əcaib və iyrənc qaçaqmalçılıq hadisəsi İsveçrənin Bazel hava limanında baş verib. Gömrük-sərhəd yoxlaması postunun əməkdaşları növbəti sərnişinin baqajını yoxlayarkən oradan çıxanları görəndə heyrətləniblər. Toqo vətəndaşı Adrian Onobanjonun çantasında 15 kiloqram qurudulmuş tırtıl çıxıb. Polisin dediyinə görə, onlar toqolu sərnişinin çantadan kiçik "qara nəsnə"ləri çıxarıb ağzına atması, sonra da yerə tüpürməsindən şübhələniblər. Toqolunun çantası ağzınadək qurudulmuş tırtılla dolu olub. Onobanjo polisi aldatmağa çalışaraq ilk əvvəl yükünün ağac kökləri olduğunu desə də, tırtılların bəziləri tərpənəndə yalanı üzə çıxıb. Polis tırtıl qurusunun İsveçrədə çərəz qismində yasaq olduğunu deyərək bu iyrənc qaçaqmalı müsadirə edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
Lisenziya N: B 114
SAYI: 4.750